*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*
*("Maidə" surəsi, 9-cu ayə).*

# İman

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

**Fevral 2013 (Rəbiul-əvvəl 1434) 01 (77)**

**Hər bir ümmətin (əzəldən müəyyən edilmiş) əcəl vaxtı vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə (ondan) nə geri qalar, nə də irəli keçə bilərlər!"**
**"Əraf surəsi, 34-cü ayə"**

**Allahın hüzurunda duracaqlarını inkar edən kimsələr, həqiqətən, ziyana uğramışlar. Belə ki, saat (qiyamət vaxtı) qəflətən başlarının üstünü aldığı zaman onlar günahlarını dallarında daşıyaraq deyəcəklər: "Dünyadakı təqsirlərimizə görə vay halımıza!" Bir baxın, daşıdıqları şey (günah yükü) necə də pisdir!**
**"Ənam surəsi, 31-ci ayə"**



# Güclü imana necə sahib olmalı?

*Bütün işləri ixlasla (saf niyyətlə) yerinə yetirib riyakarlığa yol verməmək.*

*Qurana bağlı olub onun ayələri barədə düşünmək.*

*Daim Allahı zikr etmək.*

*İmkan daxilində xeyirxah işlər görmək.*

*Cəhənnəmin əzab və çətinliklərini və Cənnətin gözəlliklərini yada salmaq.*

*Qəbir əzabını və onun şiddətini xatırlamaq.*

*Tufan, vulkan və zəlzələ kimi ilahi qüdrətə diqqət yetirmək.*

*Görülən işləri hesaba almaq və onları görməli olan işlərlə müqayisə etmək.*

*Vacib olan bütün göstərişləri yerinə yetirib haramlardan uzaq olmaq.*

*Müstəhəb əməllərə can atıb məkruh əməllərdən uzaq olmaq.*

*Həyatda əldə olunan halal və haram mallara diqqət yetirib onları hesaba almaq.*

*Şübhələrdən uzaq olmaq.*

*Əməlisaleh insanların həyatlarını araşdırıb onlardan ibrət götürmək.*

*Allah yolunda dost və düşmən olmaq.*

*Əliaçıq olub başqalarına yardım etmək.*

*Cəhalət və nadanlıqdan uzaq olub elmə yiyələnmək.*

*Başqalarını Allah yoluna dəvət etmək.*

*Günahlardan çəkinmək.*

*Dünya işlərinə tamah salmamaq.*

*Deyilənlə əməli bir etmək və təqvalı olmağa can atmaq.*

*Allahın nemətlərinə şükür edib nemətə küfr etməkdən uzaq olmaq.*

*Gözəl əxlaqa sahib olub başqalarına yaxşılıq etmək.*

*Yalandan uzaq olub həqiqəti söyləmək.*

*Çətinliklərin qarşısında səbirli olmaq.*

*Təkəbbür, həsəd və əxlaqsızlıqdan uzaq olmaq.*

# DİNİN FAYDALARI

***Din həm ayrı-ayrı fərdlərin, həm də cəmiyyətin düzgün şəkildə islah və tərbiyə olunmasında dərin təsirlərə malikdir; hətta demək olar ki, həqiqi səadət və xoşbəxtliyin yeganə vasitəsi dindir.***



Dinə inanmayan, həqiqətgörənliyi və həqiqi ziyalılığı əldən verən, öz qiymətli ömrünü azğınlıqda, zahirpərəstlikdə və qəflətdə keçirən bir cəmiyyət əql qüvvəsini heyvanlar kimi öz ayaqları altına salaraq, dardüşüncəlik və ağılsızlıqla həyat sürür, çirkin və yaramaz işlərə qurşanır və beləliklə də bütün əxlaqi keyfiyyətləri və insani məziyyətləri əldən vermiş olur. Belə bir cəmiyyət nəinki əbədi səadət və kamilliyin üzünü görməyəcək, həm də bu dünyadakı qısamüddətli və ötəri həyatla əlaqədar bir çox acınacaqlı və xoşagəlməz nəticələri, azğınlıqları görüb gec-tez öz qəflətinin tələsinə düşəcək; bu cəmiyyətin üzvləri anlayacaqlar ki, həqiqi səadaətin yeganə yolu yalnız dinə, Allaha iman gətirməkdədir. Onlar məhz bundan sonra öz əməllərinin nəticələrindən peşman olacaqlar. Allah-taala öz kəlamında buyurur: "Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır".

(Şəms, 9)

Əlbəttə, qeyd etmək lazımdır ki, ümumiyyətlə ayrı-ayrı fərdlərin və cəmiyyətlərin xoşbəxtlik səbəbi sayılan məsələlər - dini göstərişlərə əməl olunmasıdır. Əks halda, sadəcə "dindar olmaq" kifayət etməz. Çünki, müəyyən dəyərə malik olan bir şey, həqiqət iddiası deyil, həqiqətin məhz özüdür. Özünü müsəlman hesab edən, batində isə üzdəniraq və çirkin əxlaqa malik olan, yaramaz işlər görüb mələk kimi xoşbəxt olmağı təmənna edən şəxs eynilə həkimin yazdığı nüsxəni (resepti) cibinə qoyub sağalmaq arzulayan şəxsə bənzəyir. Şübhəsiz, həkimin təyin etdiyi dava-dərmanları faydalı sayan, lakin onları vaxtında qəbul etməyib bu barədə sadəcə olaraq fikirləşən şəxslər öz məqsədlərinə çata bilməzlər.

Allah-taala öz kitabında buyurur: "İman gətirənlərdən, musəvi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inananların və yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamətdə) onların heç bir qorxusu yoxdur və onlar qəmgin olmazlar".

(Bəqərə, 62)

Bəziləri bu ayənin göstərişinə uyğun olaraq, Allaha və Qiyamət gününə iman gətirib yaxşı işlər görən, amma bütün peyğəmbərləri, yaxud onların bəzilərini qəbul etməyənlərin qurtuluşa nail olmasını, xoşbəxtliyə çatmasını fikirləşə bilərlər. Diqqət yetirmək lazımdır ki, "Nisa" surəsinin 150-151-ci ayələrində Allah-taala peyğəmbərlərin hamısına, yaxud onların bəzisinə iman gətirməyənləri kafir hesab edərək buyurur: "Həqiqətən Allaha və Onun peyğəmbərlərinə qarşı kafir olan, Allahla Onun peyğəmbərləri arasında ayrılıq salmaq istəyən, "peyğəmbərlərin bəzisinə iman gətirib, bəzisinə kafir oluruq" deyərək, küfr ilə iman arasında bir yol tutmaq istəyənlər həqiqətdə kafirdirlər." (Məsələn, yəhudilər həzrət İsanın (ə) və həzrət Məhəmmədin (s), yaxud məsihilər həzrət Məhəmmədin (s) peyğəmbərliyini inkar edirlər.)

Deməli, yalnız o şəxslər imandan və əbədi xoşbəxtlikdən bəhrələnəcəklər ki, bütün peyğəmbərlərə iman gətirib yaxşı əməl sahibi olsunlar.

**Əllamə Təbatəbai**



# QURANLA

## Tanış Olmaq Mümkündürmü?

**Quran təhlil edilərkən və onun məzmunu ilə tanış olarkən qarşıya çıxan ilk sual budur ki, ümumiyyətlə görəsən Quranla tanış olmaq, onu araşdırmaq mümkündürmü? Quranda olan məsələlər barədə fikirləşmək və dərindən düşünmək olar yoxsa bu kitab tanınmaq üçün göndərilməyib, ancaq oxumaq yaxud savab əldə etmək və təbərrük kimi istifadə etmək üçündür? Kiminsə zehninə bu sualın yersiz olması gələ bilər. Çünki Quranın tanınmalı bir kitab olmasında heç kəsin şübhəsi yoxdur. Amma nəzərə almaq lazımdır ki, İslam dünyasında Quranla tanışlıq məsələsində müxtəlif səbəblərdən xoşagəlməz hərəkatlar yaranıb və bunun müsəlmanların tənəzzülündə çox böyük təsiri olub. Təəssüflə qeyd etmək lazımdır ki, həmin küt və təhlükəli təfəkkürün qalıqları bizim cəmiyyətdə bu gün də mövcuddur. Odur ki, bir az bu barədə izah verməyi lazım bilirik.**

Dörd əsr qabaq bəzi alimlər arasında Quranın dini dəlil olmamasına etiqad bəsləyənlər olub. Onlar müsəlman alimlərin İslami məsələlərin müəyyənləşdirilməsi üçün meyar olaraq təyin etdikləri dörd fiqhi mənbədən, yəni, Quran, sünnə, icma və əqldən üçünü qəbul etməyiblər. Onlar icma barədə deyirlərmiş ki, o, əhli-sünnənin üsuludur deyə ona tabe olmaq olmaz. Ağıl barəsində deyirlərmiş ki, ağıl bu qədər səhvə yol verdiyi üçün ona etimad etmək düz deyil. Quran barəsində də çox ehtiramla iddia ediblər ki: Quran o qədər böyük kitabdır ki, bizim kimi kiçik insanlar onu mütaliə edə və barəsində düşünə bilmərik. Quran ayələri barədə düşünmək yalnız Peyğəmbərin (s) və İmamların haqqıdır, bizim haqqımız ancaq onu oxumaqdır.

Onlar əxbarilər olublar. Əxbarilər yalnız hədis və rəvayətlərə müraciət etməyi düzgün sayıblar. Bəlkə də eşidib təəccüb edəcəksiniz ki, onlar yazdıqları bəzi təfsirlərdə ayəyə aid hədis olanda həmin hədisi nəql ediblər, ayə barəsində hədis olmayanda isə ayənin üstündən sanki o, Quran ayəsi deyilmiş kimi ötüb keçiblər.

Bu iş, Quran barəsində bir növ zülm və haqsızlıqdır. Təbii ki, özünün səma kitabını, özü də Quran kimi kitabı qeyd edilən şəkildə kənara qoyub yaddan çıxaran cəmiyyət heç vaxt Quran yolunda hərəkət edə bilməz. Əxbarilərdən başqa Quranı ümumi insanlar üçün əlçatmaz hesab edən digər dəstələr də olublar. Onlara misal olaraq əşəriləri göstərmək olar. Onların etiqadına görə Quranla tanışlığın mənası Quran ayələri barədə düşünmək deyil, sadəcə ayələrin hərfi mənasını bilməkdir. Yəni ayələrin zahirindən nə başa düşürüksə, onu qəbul etməliyik və onun batini ilə işimiz olmamalıdır. Bildiyimiz kimi Qurana qarşı bu cür münasibət çox tez zamanda azğınlığa səbəb olacaqdır. Çünki onlar Quran ayələrini izah etmək məcburiyyətində idilər, amma ağılı kənara qoyduqları üçün naçar qalıb Qurandan avamyana çıxarışlar edirdilər. Bu təfəkkür tərzinə görə onlar da çox tez düzgün dərketmə yolundan sapıblar və səhv inanclara etiqad bəsləyiblər. Məsələn "təcəssüm"ə, yəni Allahın cism olmasına və buna bənzər yüzlərlə digər şeylərə, o cümlədən Allahın gözlə görünməsinin mümkünlüyünə və adi dillə Allahla danışmaq kimi inanclara qail olublar.

Quranı kənara qoyan dəstənin müqabilində onu öz hədəf və məqsədlərinə çatmaq vasitəsi edən digər bir dəstə də peyda olub. Onlar mənafelərinin təminatının tələb etdiyi hər bir yerdə Quran ayələrini yozmağa başlayıblar və Qurana Quranın ruhuna tam yad şeylər isnad ediblər. Bütün irad və etirazların müqabilində bu dəstənin yeganə cavabı bu olub ki, ayələrin batinini təkcə biz bilirik və dediyimiz bu mənalar ayələrin batini ilə tanışlıqdan əldə edilmişdir.

İslam tarixində bu hərəkatın qəhrəmanları iki dəstə olub. Onlardan biri "batiniyyə" adı ilə də

tanınan ismaililər, digəri isə sufilər olublar. İsmaililər əsasən Hindistanda, az miqdarı da İranda olublar. Onlar bir zamanlar dövlət də qurublar və o, Misirdə Fatimilər dövləti olub. İsmaililər dırnaqarası altı imamçı şiələrdir. Amma bütün on iki imamçı İslam alimlərinin yekdil nəzərinə əsasən bu altı imamçılar qeyri-İslamdan daha uzaq olublar. Yəni hətta imamların birini də Cəfəri məzhəbinin etiqad bəslədiyi mənada qəbul etməyən əhli-sünnə, İslama bu altı imamçılardan daha yaxındır. İsmaililər bu batiniçilik iddiaları ilə İslam tarixində çoxlu xəyanətlər ediblər və İslami məsələlərdən sapmalarda böyük rol oynayıblar.

İsmaililərdən sonra sufilərin də ayələrin təhrif edilməsi və şəxsi əqidəyə əsasən yozulmasında böyük məharətləri olub. Mən burada onların təhrif üsullarının aydınlaşması və oxucuların məsələni bir misaldan tam başa düşməsi üçün sufilərin təfsirlərindən bir nümunəyə işarə edəcəyəm.

Quranda həzrət İbrahim (ə) və oğlu İsmailin (ə) hekayəti nəql edilən yerdə deyilir ki, həzrət İbrahimə (ə) yuxuda bir neçə dəfə oğlunu Allah yolunda qurban kəsmək göstərişi verilir. İbrahim əvvəlcə bu göstərişdən təəccüblənir, amma yuxu bir neçə dəfə təkrarlandıqdan sonra onda yəqinlik yaranır və Allahın əmrinə tabe olur. Sonra məsələni oğluna deyir və o da xalis niyyətlə qəbul edərək ilahi hökmə təslim olur. Məqsəd Allahın hökmünə təslim və razı olmağın üzə çıxması olub və buna görə də ata-bala onların hər ikisi tam səmimiyyət və xalis niyyətlə Allahın əmrini yerinə yetirməyə hazır olduqdan sonra Allahın izni ilə hökmün icrası dayandırılıb.

Sufilər bu hadisənin təfsirində deyirlər ki, İbrahimdən məqsəd ağıl İbrahimi, İsmaildən məqsəd isə nəfs ismailidir. Burada ağıl nəfsin başını kəsmək istəyirdi.

Məlum olduğu kimi belə bir çıxarış etmək Quranla oynamaq və bir növ səhv, azdırıcı məlumat təqdim etməkdir. Həzrət Peyğəmbər (s) bu cür azdırıcı və şəxsi, sinfi istəklərə əsaslanan təfsirlər barəsində belə buyurmuşdur: "Kim Quranı öz şəxsi rəyi ilə təfsir etsə, Cəhənnəmdə yeri hazırdır". Ayələrlə bu cür oynamaq Qurana xəyanət, özü də çox böyük bir xəyanət sayılır.

Quran əxbarilərin və onların bənzərlərinin kütbeyinliklərinin və quru fikirlərinin, həmçinin batinilərin və digərlərinin əyrilikləri və səhv çıxarışlarının müqabilində orta yol təklif edir. Həmin orta yol qərəzsiz və insaflı diqqət və düşüncədən ibarətdir. Quran təkcə möminləri deyil, hətta müxaliflərini öz ayələri barədə təfəkkür və düşüncəyə dəvət edir, onun müqabilində səngər qurmaq əvəzinə ayələrində fikirə dalmağı xatırladır. Quran müxaliflərə xitab edərək nə üçün Quran barədə düşünməmələrinin səbəbini soruşur və deyir ki, bu qəlblər necə qəlblərdir, sanki onlar qıfıllanıb. Digər bir ayədə buyurur: "(Bu Quran,) ayələrində düşünmələri və ağıl sahiblərinin ibrət götürmələri üçün sənə nazil etdiyimiz xeyir dolu və mübarək bir kitabdır". Quranın nazil edilməsinin səbəbi nədir? Onun ayələrində düşünmək! Biz onu öpüb taxçanın üstünə qoymaları üçün nazil etməmişik, ayələrində düşünmələri və ağıl sahiblərinin ibrət götürməsi üçün nazil etmişik.

Bu ayələr, həmçinin Quran barədə düşünməyə təkid edən onlarla digər ayənin hamısı Quranın təfsir edilməsinin caiz olduğunu təsdiqləyir. Amma şəxsi meyl və nəfsi istəklər əsasında deyil insaf, doğruluq və qərəzsizliyə əsaslanan təfsir. Biz Quran barəsində insafla və qərəzsiz düşünəndə onda olan bütün məsələlərin həll edilməsi zərurəti də olmur. Quran bu baxımdan təbiətə bənzəyir. Təbiətdə həll edilməmiş çoxlu sirlər var ki, biz indinin özündə də onları həll etmək qüdrətinə malik deyilik. Amma həmin məsələlər gələcəkdə həll ediləcək. Bundan əlavə insan təbiətlə tanış olarkən öz düşüncəsini təbiətin gerçəklikləri ilə uyğunlaşdırmalıdır, təbiəti özünün istədiyi kimi təfsir və izah etməməlidir. Quran da təbiət kimi məxsus bir zaman üçün nazil olmamış bir kitabdır. Əgər belə olmasaydı onun sirləri keçmiş zamanlarda açılar və bu səma kitabı özünün bütün cazibə, yenilik və təsir qüvvəsini itirərdi. Halbuki Quran barədə düşünmək, yeni kəşflər etmək imkanı həmişə mövcuddur və Peyğəmbər (s) eləcə də İmamlar (ə) bu məqamı izah ediblər. Həzrət Peyğəmbərin (s) hədislərdən birində belə buyurması nəql edilmişdir ki: "Quran günəş və ay kimidir və o, onların ikisi kimi həmişə hərəkətdədir". Yəni yerində dayanmayıb, sabit, sönük deyil. Həmçinin buyurub: "Quranın zahiri gözəl, batini dərindir". Uyunu əxbar ər-Rza kitabında imam Rzadan (ə) nəql edilir ki: "İmam Sadiqdən (ə) "Quranın üstündən nə qədər vaxt keçirsə və nə qədər çox oxunursa təravət və yeniliyi artır, bunun sirri nədir?" deyə soruşurlar. İmam Sadiq (ə) buyurur: "Çünki Quran təkcə bir zaman üçün və yalnız bir cəmiyyət üçün nazil olmayıb". Quran bütün zamanlar və bütün insanlar üçün nazil olub. Quranı nazil edən onu elə qurub ki, müxtəlif zamanlarda təfəkkür tərzi, məlumatlar, düşüncələrin əhatə dairəsinin genişliyi arasında bir çox ixtilafların olmasına baxmayaraq Quran yenə də zaman və təfəkkürləri qabaqlayır və bütün dövrlərdə öz oxucuları üçün bir sıra gizli məsələlərə malikdir. Bununla yanaşı o qədər dərk edilməli və əsaslı məna və məfhum təqdim edir ki, zəmanənin tutumunu doldurur.

**Mürtəza Mütəhhəri**

# SƏHABƏLƏR KİMLƏRDİR?



Peyğəmbəri Əkrəmi (s) görüb onunla müsahib (yoldaş) olanlar bir neçə qismə bölünür. Biz bu qismləri şərh etməzdən öncə səhabənin tərifini qısa şəkildə deyirik.

"Peyğəmbər səhabəsi" ilə əlaqədar müxtəlif təriflər qeyd olunmuşdur. O cümlədən:

1-Səid ibni Müseyyib deyir: "Səhabə o kəsdir ki, bir, yaxud iki il müddətində Peyğəmbəri Əkrəm (s)-lə yanaşı olmuş, onunla birlikdə bir, yaxud iki müharibədə iştirak etmiş və vuruşmuşdur." ("Usdul-ğabə", 1-ci cild, səh.11-12, Misir çapı.)

2-Vaqidi deyir: "Alimlərin nəzərinə görə hər kəs Peyğəmbəri Əkrəm (s)-i görüb və islamı qəbul edibsə, həmçinin din işində təfəkkür edərək ona razı olmuşsa bizim nəzərimizdə Peyğəmbər səhabəsi hesab olunur, hətta günün bir saatı qədər olmuş olsa belə."

("Usdul-ğabə", 1-ci cild, səh.11-12)

3-Məhəmməd ibni İsmail Buxari belə deyir: "Müsəlmanlardan hər kəs Peyğəmbər (s)-lə müsahib olmuşsa, yaxud onu görmüşsə o həzrətin səha-bəsi adlanır."

4-Əhməd ibni Hənbəl deyir: "Hər kəs bir ay, yaxud bir gün, yaxud bir saat Peyğəmbər (s)-lə müsahib olmuşsa, yaxud o həzrəti görmüşsə səhabələrdən sayılır."

("Usdul-ğabə", 1-ci cild, səh.11-12)

Əhli-sünnət alimlərinin nəzərində istisnasız olaraq bütün səhabələrin ədalətli olması məsələsi danılmaz bir prinsip kimi qəbul edilmişdir. Yəni hər kəs Peyğəmbər (s)-lə müsahib olmuşsa hökmən adildir. ("Əl-istiyab fi əsmail əshab", 1-ci cild, səh.2)

İndi isə Quranın aydınlıq verən ayələrinin sayəsində bu nəzəriyyələri araşdırır, İslamın vəhy məntiqindən qaynaqlanan nəzərini qeyd edirik:

Tarixdə on iki mindən artıq adam "Peyğəmbər (s) səhabəsi" kimi qeyd edilmişdir ki, onların arasında müxtəlif simalar gözə dəyir. Şübhəsiz, Peyğəmbəri Əkrəm (s)-lə müsahib olmaq böyük bir iftixardır ki, müəyyən insanlara nəsib olmuşdur və islam ümməti də onlara həmişə ehtiram nəzərləri ilə baxırlar. Çünki onlar islam dinini qəbul edən ilk şəxslər olmuş, islamın izzət və şövkətli bayrağını ilk dəfə olaraq ucaltmışlar. Quran da daim bu hərəkatın önündə gedən belə bayraqdarları tərifləyərək buyurur:

لَا يَسْتَوِي مِنكُمْ مَنْ اَنفَقَ مِنْ قَبْلِ الْفَتْحِ وَقَاتَلَ اُوْلَئِكَ اَعْظَمُ درَجَةً مِنَ الَّذِينَ اَنفَقُوا مِنْ بَعْدُ وَقَاتَلُوا

"Məkkənin fəthindən qabaq mal-dövlətlərini (Allah yolunda) ehsan edib mübarizə edənlər bu işdən sonra infaq və cihad edənlərlə bərabər deyillər əksinə onlar yüksək bir dərəcəyə malikdirlər." ("Hədid" surəsi, ayə:10)

Eyni halda bunu da etiraf etməliyik ki, Peyğəmbər (s)-lə müsahib olmaq elə bir kimya deyildi ki, bütün insanların mahiyyətini dəyişdirsin, onların hamısına, ömürlərinin axırına qədər zəmanət versin və aqillər cərgəsində qərar versin. Bu məsələnin aydın olması üçün hər şeydən öncə bütün müsəlmanlar tərəfindən qəbul edilən Qurana üz gətirir və onun həll olunmasında bu müqəddəs asimani kitabdan kömək istəyirik:

## QURAN NƏZƏRİNDƏ SƏHABƏ

Vəhy məntiqində Peyğəmbəri Əkrəm (s)-in hüzuruna çatan və onunla müsahib olan (yoldaşlıq edən) şəxslər iki dəstədir:

## BİRİNCİ DƏSTƏ

Onlar Quran ayələrində təriflənmiş, islamın şövkətinin və əzəmətli sarayının bünövrəsini qoyanlar kimi qeyd olunanlardır. Biz burada həmin dəstədən olan səhabələrlə əlaqədar bəzi ayələri qeyd edirik:

### 1-İlk iman gətirənlər

وَالسَّابِقُونَ الاَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالاَنْصَارِ وَالَّذِينَ اتَّبَعُوهُمْ بِإِحْسَانٍ رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ وَاَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الاَنْهَارُ خَالِدِينَ فِيهَا اَبَدًا ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ

"Mühacir, ənsar və onlara tabe olan ilk iman gətirənlər... Allah onlardan, onlar da Allahdan razıdır və Allah, ağaclarının altından çaylar axan behişt bağlarını onlar üçün hazırlamışdır, bu, həqiqətən də böyük qurtuluşdur." ("Tövbə" surəsi, ayə:100)

### 2-Ağacın altında beyət edənlər

لَقَدْ رَضِيَ اللَّهُ عَنِ الْمُؤْمِنِينَ اِذْ يُبَايِعُونَكَ تَحْتَ الشَّجَرَةِ فَعَلِمَ مَا فِي قُلُوبِهِمْ فَاَنْزَلَالسَّكِينَةَ عَلَيْهِمْ وَاَثَابَهُمْ فَتْحًا قَرِيبًا

"Allah, səninlə ağacın altında beyət edən möminlərdən razı oldu və onların qəlblərindən keçənləri bildi. Bundan sonra onların qəlbinə

aramlıq nazil etdi və yaxın olan qələbəni onlara mükafat verdi.” (“Fəth” surəsi, ayə:18)

**3-Mühacirlər**

لِلْفُقَرَاءِ الْمُهَاجِرِينَ الَّذِينَ أُخْرِجُوا مِن دِيَارِهِمْ وَأَمْوَالِهِمْ يَبْتَغُونَ فَضْلًا مِنَ اللَّهِ وَرِضْوَانًا وَيَنصُرُونَ اللَّهَ وَرَسُولَهُ أُولَٰئِكَ هُمُ الصَّادِقُونَ

“Öz ev-eşiklərindən qovulub uzaqlaşdırılan mühacir müsəlmanlar, Pərvərdigarın fəzl və mərhəmətini axtaran, Allaha və Peyğəmbərinə kömək edənlər üçün... Onlar həqiqətən doğruçulardır.” (“Həşr” surəsi, ayə:8)

4-Fəth səhabələri

مُحَمَّدٌ رَّسُولُ اللَّهِ وَالَّذِينَ مَعَهُ أَشِدَّاءُ عَلَى الْكُفَّارِ رُحَمَاءُ بَيْنَهُمْ تَرَاهُمْ رُكَّعًا سُجَّدًا يَبْتَغُونَ فَضْلًا مِّنَ اللَّهِ وَرِضْوَانًا سِيمَاهُمْ فِي وُجُوهِهِم مِّنْ أَثَرِ السُّجُودِ

“Məhəmməd Allahın Rəsuludur, onun köməkçiləri və onunla olanlar kafirlərə qarşı qəliz, bir-birləri arasında mehribandırlar. Onları rüku və səcdə halında görərsən ki, Allahın fəzl və mərhəmətini axtarırlar, onların üzlərində səcdənin əsərləri vardır.”

(“Fəth” surəsi, ayə:29)

**İKİNCİ DƏSTƏ**

İkinci dəstə Peyğəmbər (s)-lə müsahib olmalarına baxmayaraq batinləri ilə zahirləri düz gəlməyən münafiqlərdir. Qurani-Kərim onların mahiyyətini, iç üzünü ifşa edərək Peyğəmbər (s)-i onların varlığından qorxudur. Burada nümunə olaraq onlardan bir neçəsini qeyd edirik:

**1-Tanınmış münafiqlər**

إِذَا جَاءَكَ الْمُنَافِقُونَ قَالُوا نَشْهَدُ إِنَّكَ لَرَسُولُ اللَّهِ وَاللَّهُ يَعْلَمُ إِنَّكَ لَرَسُولُهُ وَاللَّهُ يَشْهَدُ إِنَّ الْمُنَافِقِينَ لَكَاذِبُونَ

“(Ey Peyğəmbər,) o zaman ki, münafiqlər sənin yanına gəlib dedilər: “Biz şəhadət veririk ki, sən Allahın peyğəmbərisən.” Allah bilir ki, sən Onun Rəsulusan və o həm də şahidlik verir ki, münafiqlər yalan danışırlar.”

(“Munafiqun” surəsi, ayə:1)

**2-Tanınmayan münafiqlər**

وَمِمَّنْ حَوْلَكُم مِّنَ الْأَعْرَابِ مُنَافِقُونَ وَمِنْ أَهْلِ الْمَدِينَةِ مَرَدُوا عَلَى النِّفَاقِ لَا تَعْلَمُهُمْ نَحْنُ نَعْلَمُهُمْ

“Sizin ətrafınızda olan bəzi çöl ərəbləri münafiqdirlər və Mədinə əhlindən bəziləri nifaqa (ikiüzlülüyə, münafiqliyə) qərq olmuşlar. Sən onları tanımırsan, Biz onları tanıyırıq.” (“Tövbə” surəsi, ayə:101)

**3-Qəlbləri xəstə olanlar**

وَإِذْ يَقُولُ الْمُنَافِقُونَ وَالَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ مَّا وَعَدَنَا اللَّهُ وَرَسُولُهُ إِلَّا غُرُورًا

“Münafiqlər və qəlblərində xəstəlik olanlar Allahın və Peyğəmbərin vədəsini eşitdikləri zaman “bu yalandan başqa bir şey deyildir” - deyirdilər.”

(“Əhzab” surəsi, ayə:12)

**4-Günahkarlar**

وَآخَرُونَ اعْتَرَفُوا بِذُنُوبِهِمْ خَلَطُوا عَمَلًا صَالِحًا وَآخَرَ سَيِّئًا عَسَى اللَّهُ أَن يَتُوبَ عَلَيْهِمْ إِنَّ اللَّهَ غَفُورٌ رَّحِيمٌ

“Öz günahlarına etiraf edən bəziləri yaxşı əməllərini pis əməllərlə qarışdırmışlar, bəlkə Allah onların tövbəsini qəbul edə. Allah bağışlayan və mehribandır.”

(“Tövbə” surəsi, ayə:102)

Qeyd olunan ayələrdən başqa, Peyğəmbər (s)-dən nəql olunmuş çoxlu rəvayətlərdə bəzi səhabələr məzəmmət edilir. Misal olaraq, onlardan ikisini qeyd edirik:

1-Əbu Hazim, Səhl ibni Səddən rəvayət edir ki, Peyğəmbəri Əkrəm (s) buyurdu:

أَنَا فَرَطُكُمْ عَلَى الْحَوْضِ مَنْ وَرَدَ شَرِبَ وَ مَنْ شَرِبَ لَمْ يَظْمَأْ أَبَدًا وَ يَرِدَنَّ عَلَيَّ أَقْوَامٌ أَعْرِفُهُمْ وَ يَعْرِفُونَنِي ثُمَّ يُحَالُ بَيْنِي وَ بَيْنَهُمْ

“Mən (qiyamətdə) sizi hovuza tərəf göndərirəm, hər kəs ona varid olursa ondan içir, hər kəs də içirsə onun susuzluğu əbədi olaraq aradan qalxır. Bir qrup mənim yanıma gəlir, mən onları tanıyıram, onlar da məni tanıyırlar, sonra mənimlə onlar arasında fasilə salınır.”

Əbu Hazim deyir: Mən bu hədisi oxuyan zaman Noman ibni Əbi Əyyaş eşidib dedi: Səhldən belə eşitdinmi? Dedim: Bəli. Dedi: Şəhadət verirəm ki, Əbu Səid Xidri də bu hədisi aşağıdakı əlavə ilə Peyğəmbər (s)-dən nəql edirdi:

إِنَّهُمْ مِنِّي فَيُقَالُ إِنَّكَ لَا تَدْرِي مَا أَحْدَثُوا بَعْدَكَ فَأَقُولُ سُحْقًا سُحْقًا لِمَنْ بَدَّلَ بَعْدِي

“(Mən deyəcəyəm: Pərvərdigara, axı) onlar məndəndir?! Deyiləcək: Sən bilmirsən ki, onlar səndən sonra nələr etdilər! Sonra mən deyirəm: Allahın rəhmətindən uzaq olsun o kəslər ki, (məndən sonra Allahın hökmlərini) dəyişdirdilər.” (“Camiul-üsul” (ibni Əsir), 11-ci cild, səh.120, 7972-ci hədis)

“Mən onları tanıyıram, onlar da məni tanıyırlar, eləcə də “məndən sonra dəyişdirdilər” cümləsindən məlum olur ki, “onlar” dedikdə məqsəd bir müddət Peyğəmbərlə yoldaş olan səhabələrdən bəziləridir.

2-Buxari və Müslim Peyğəmbəri Əkrəm (s)-in belə buyurduğunu nəql etmişlər:

يَرِدُ عَلَيَّ يَوْمَ الْقِيَامَةِ رَهْطٌ مِنْ أَصْحَابِي -أَوْ قَالَ مِنْ أُمَّتِي- فَيُحَلَّؤُونَ عَنِ الْحَوْضِ فَأَقُولُ يَا رَبِّ أَصْحَابِي. فَيَقُولُ إِنَّهُ لَا عِلْمَ لَكَ بِمَا أَحْدَثُوا بَعْدَكَ إِنَّهُمْ ارْتَدُّوا عَلَى أَدْبَارِهِمُ الْقَهْقَرِيِّ

“Qiyamət günündə mənim səhabələrimdən (yaxud “ümmətimdən” deyə buyurdu) bir qrupu mənim yanıma gələr, sonra onlar hovuzdan (“Kovsər” hovzundan) uzaqlaşdırılar. (Onların Kovsər hovuzuna yaxınlaşıb daxil olmalarının qarşısı alınar.) Mən deyərəm: Pərvərdigara, bunlar ki, mənim səhabələrimdir?! Allah buyurar: Sən onların, səndən sonra etdikləri əməllərdən agah deyilsən. Onlar əvvəlki vəziyyətlərinə (cahiliyyət dövrünə) qayıtdılar.”

(“Camiul-üsul”, 1-ci cild, səh.120, 7973-cü hədis)

**NƏTİCƏ**

**Quran ayələrindən və Peyğəmbər (s) sünnəsindən aydın olur ki, Peyğəmbəri Əkrəm (s)-lə müsahib olmaq iftixarına nail olan səhabələrdən hamısı (əqidə cəhətindən) eyni səviyyədə olmamışlar onların bir qrupu təqvalı və layiqli insanlar olmuşlar və onların dəyərli xidmətləri nəticəsində islam dini inkişaf edib genişlənmişdir. Digər bir qrupu isə ilk əvvəldən ikiüzlü, münafiq, qəlbi xəstə və günahkar insanlar olmuşlar.**

**Deməli Əhli-beyt tərəfdarları olan müsəlmanların Peyğəmbər (s) səhabəsi barəsində olan nəzəri elə Allahın və Peyğəmbər (s)-in buyurduğundan ibarətdir.**

**(Əlavə məlumat almaq üçün “Münafiqun” surəsinə müraciət edə bilərsiniz.)**

# İSLAMIN DÜNYA SƏVİYYƏLİ BİR DİN OLMASI



**İslamın dünya səviyyəli bir din olması, onun hansısa bir xüsusi qövmə, yaxud məntəqəyə aid olmaması bu ilahi dinin zəruri məsələlərindəndir. Hətta ona iman gətirməyən şəxslər belə islami çağırışın ümumdünya səviyyəsində olmasını, xüsusi coğrafi məntəqə ilə məhdudlaşmamasını bilirlər.**

Bundan əlavə, mövcud olan çoxlu tarixi faktlara əsasən Peyğəmbər (s) Roma, İran, Misir, Həbəşistan və Şam padşahlarına, eləcə də müxtəlif ərəb və digər qəbilə başçılarına məktublar yazmış, onlara qasid göndərmiş, hamısını bu müqəddəs dini qəbul etməyə çağırmış və İslamı qəbul etmək qarşısında təkəbbür göstərib, küfr etməyin acınacaqlı nəticələri barədə onlara xəbərdarlıq etmişdir. Əgər İslam dini dünya səviyyəli olmasaydı, heç vaxt belə bir ümumi də'vət baş verməzdi. Başqa qövmlər və ümmətlər də bunu qəbul etməməkdə müəyyən bəhanələr gətirərdi.

Buna görə də, İslamın haqq olmasına iman gətirməklə bu ilahi şəriətə əməl etməyin zərurəti arasında ayrılıq salmaq və boyunlarında vəzifə borcu olduğuna görə bu ilahi ayinə əməl edən kəsləri istisna etmək olmaz.

## QURANIN İSLAMIN ÜMUMDÜNYA DİNİ OLMASINA DAİR DƏLİLLƏRİ

Bu cür mətləblərin isbat olunmasında ən mö'təbər və ən yaxşı dəlil Qur'ani-kərimin özüdür. Bu ilahi kitaba dərindən nəzər salan şəxs onun də'vətinin ümumi və dünya səviyyəsində olmasını, hansısa firqə və ya tayfaya məxsus olmadığını anlayar. Qur'an özünün çoxlu ayələrində bütün insanlara "ya əyyuhənnas», yə'ni "ey insanlar" , yaxud "ey bəni Adəm", yə'ni "ey Adəm övladları" deyə xitab edir, öz hidayətinin bütün insanlara və bütün aləmlərə şamil olduğunu buyurur. Həmçinin, Qur'an ayələri Peyğəmbərin (s) risalətinin bütün insanlara aid olduğunu bildirmişdir. Bir ayədə isə bu də'vətin onun barəsində agahlığı olan hər kəsə şamil olduğunu tə'kid edir ("Ən'am"-19). Digər tərəfdən digər dinlərin ardıcıllarına "əhli-kitab" - deyə xitab edir və onlara tə'nə vurur. Peyğəmbəri-Əkrəmin (s) risalətinin onlara da aid olduğunu bildirir. Ümumiyyətlə, Qur'ani-kərimin Peyğəmbərə (s) nazil olmasında əsas hədəf İslamın digər dinləri qüvvədən salması hesab olunmuşdur.

Bu ayələrə diqqət yetirməklə Qur'ani-kərimin də'vətinin hamıya aid olmasında və müqəddəs İslam dininin dünya səviyyəsində bir din olmasında şübhəyə yer qalmır.

## İSLAMIN ƏBƏDİ BİR DİN OLMASI

Yuxarıdakı ayələrdə qeyd olunan ümumi sözlərdən ("ey bəni Adəm", "ey insanlar", "ey aləmdəkilər" kimi) istifadə etməklə və qeyri-ərəb qövmlərinə və başqa din ardıcıllarına "kitab əhli" deyə xitab etməklə İslam dininin ümumi və dünya səviyyəli bir din olması sübuta yetir. Həmçinin zaman cəhətindən qeyd vurulmaması ayələrin müəyyən zamana aid edilməsi onun məhdud zamandan ötrü olmasını inkar edir. Xüsusilə "liyuzhirəhu ələddini kullih" ("onu bütün dinlərə qalib etsin deyə» ) ayəsi heç bir şübhəyə yer qoymur. "Fussilət" surəsinin 42-ci ayəsində buyurulur:

«Həqiqətən, o, əziz, çox dəyərli, qiymətli bir kitabdır. Nə öncə, nə də sonra batil ona yol tapa bilər. O, həkim (hikmət sahibi) və həmid (şükrə, tə'rifə layiq olan) Allah tərəfindən nazil edilmişdir.»

Bu ayə göstərir ki, Qur'ani-kərim heç vaxt özünün düzgünlük və e'tibarını əldən verməyəcəkdir. Rəsuli-Əkrəmin (s) sonuncu peyğəmbər olması dəlilləri də bu ilahi dinin digər bir peyğəmbər və şəriət vasitəsilə qüvvədən düşməsinin mümkünlüyü ilə əlaqədar yaranan şübhəni aradan qaldırır. Deyilən məzmunda da çoxlu rəvayətlər nəql olunmuşdur. O cümlədən:

"Həzrət Məhəmmədin (s) halal buyurduğu qiyamət gününə qədər halal, haram buyurduğu isə qiyamət gününə qədər haramdır.»

İslamın əbədi olması onun dünyəvi bir din olmasını zəruri edən ilahi məsələlərdəndir və bu barədə əlavə dəlillər gətirməyə ehtiyac duyulmur.

# *İmam Əlinin (ə) cavanlara 7 əməli tövsiyəsi!*

***İmam Əli (ə) buyurur: "Agah olun! Xətalar və günahlar üsyankar at kimidilər ki, günahkarlar ona miniblər. Onları cəhənnəmin dibinə yıxar. Təqva isə aram minik kimidir ki, sahibləri ona minərlər və yüyənləri əllərindədir. Onları behiştə qədər aparar".***

**1.TƏQVA**

Cavanlar üçün təqvanın yeri və məqamı o qədər mühüm və əhəmiyyətlidir ki, bu dövrdə o, xüsusilə vurğulanmışdır. O cavanlar ki, emoss ionaldırlar, nəfsani istəklərinin dalınca gedirlər, təqva onlar üçün möhkəm hasar və qaladır. Onu düşmənin hücumundan qoruyar. Sanki bir qalxandır ki, onu oxların zərbəsindən hifz edər. İmam (ə) buyurur: "Ey Allahın bəndələri, bilin! Təqva nüfuz edilə bilməyən və möhkəm qaladır". Həzrət Yusif (ə) də təqvası sayəsində güclü iradə ilə İlahi imtahanlarından başı uca çıxmışdı.

**2. İRADƏNİ GÜCLƏNDİRMƏK**

Cavanların əksəriyyəti iradə zəifliyindən şikayət edirlər. Bunun üçün yollar axtararlar. Pis adətdən əl çəkməyi dəfələrlə qərara almışlar, ancaq buna çox az nail olmuşdular. İmam Əli (ə) təqvanı iradəni gücləndirən amil kimi tanıtmışdır. Quran buyurur: "Bizim yolumuzda (öz nəfsi ilə və Bizim düşmənimizlə) cihad edənlərə şübhəsiz, Öz (dərgahımızdakı məqama yetişmək) yollarımızı göstərərik və həqiqətən, Allah yaxşı iş görənlərlədir". ("Ənkəbut" 69).

**3. CAVANLIQ FÜRSƏTİ**

Şübhəsiz ki, müvəffəqiyyətin amillərindən biri də münasib fürsətləri yaxşı dəyərləndirməkdir. Cavanlıq da bu fürsətlərdən biridir. Mənəvi və cismi qüvvə ağır bir gövhərdir. Allah bu gövhəri cavanların ixtiyarına qoymuşdur. İmam (ə) bu haqda buyurur: "Fürsət əlindən getməmiş və qüssə mənbəyinə çevrilməmiş onu qənimət bil". Başqa yerdə buyurur: "Sağlamlığını, qüdrətini, cavanlığını və sevincini yaddan çıxartma, onlardan axirət yolunda istifadə et".

**Özünü tərbiyə etmək**

Özünü tərbiyə üçün ən münasib vaxt cavanlıqdır. Çünki cavanın qəlb səhifəsi çirkinliklərlə formalaşmamışdır. Fitrət çırağı qəlbində sönməmişdir. İmam Əli (ə) oğlu İmam Həsənə (ə) buyurur: "Yeniyetmənin qəlbi boş torpaq kimidir. Hər nə toxum əksən onu qəbul edər. Ona görə də qəlbin daşlaşmamış və fikrin başqa işlərlə məşğul olmamış sənə təlim və tərbiyə etməyə başladım və hümmətimi səni tərbiyə etməyə qoydum".

**4. İZZƏTİ-NƏFS.**

İmam Əlinin (ə) cavanlara verdiyi tövsiyələrdən biri də izzəti-nəfsdir. İzzəti-nəfs - insanın ən əsas ehtiyaclarından biridir.

Xoşbəxtlikdən Xaliq onun toxumunu insan fitrətinə səpmişdir. Təbiidir ki, bu toxumun inkişafa və qayğıya ehtiyacı vardır. Tarix boyu Firon səltənəti insanları istismar etmək üçün şəxsiyyətlərini alçaldırdılar.

**5. VİCDAN ƏXLAQI**

İmam Əli (ə) övladına tövsiyə edərək, buyurur: "Oğlum, özünü özünlə başqaları arasında hökm çıxartmaqda meyar və miqyas qərar ver". Bu məsələni görməməzliyə vurmaq - dostluq rabitələrini məhv edər.

**6. TƏCRÜBƏ TOPLAMAQ**

Başqaların təcrübəsindən bəhrələnmək İmam Əlinin (ə) tövsiyələrindən biridir. O Həzrət (ə) buyurur: "Keçmişdəkilərin xəbərini qəlbinə ərz et və keçmişdəkilərə çatan şeyi yada sal. Onun dağıdıcı nəticələrinə nəzər sal. Düzgün bax gör onlar nə ediblər".

**7. DOSTLUQ ƏDƏBİNƏ RİAYƏT ETMƏK**

Şübhəsiz ki, dostluğun davamlı olması dostluq hədlərinə riayət etməkdən çox asılıdır. Dost seçmək asandır, ancaq onu saxlamaq çətindir. İmam (ə) buyurur: "Ən zəif insan o kəsdir ki, dost seçməkdə aciz olsun və ondan da zəif o kəsdir ki, dostunu əldən versin".

Beləliklə deyə bilərik ki, əgər cavanlar İmam Əlinin (ə) bu tövsiyələrinə əməl edərlərsə, həyatda daha az problemlə rastlaşarlar.

# *Peyğəmbərlər (ə) məsum olduqları halda nədən onlar suç və itaətsizlikdə günahlandırılmışlar?*

Bu suala cavab vermədən öncə əgər ilahi ehkamların növlərini və ərəbcə “Zənb” və azəricə “Günah” kəlməsinin mənasını araşdırarıqsa, peyğəmbərlərə nisbət verilən kəlmənin əsl mənasını düzgün təhlil etmiş olarıq.

**Əhkamın növləri**

İlahi əmr və nəhylər - (Allahın göstəriş və çəkindirdikləri) iki qismdən ibarətdir: 1-Qanuni, 2-İrşadi

**A) Qanuni hökmlər:** Təklif gətirən zəruri göstərişlərdən ibarətdir. Allah bu cür hökmlərə əməl və riayət olunmasına ciddiyyətlə tələb edir. O əməl qarşısında mükafat, laqeydlik göstərildikdə isə axirətdə əzab edəcəyini vəd edir.

**B) İrşadi hökmlər:** O hökmlərə deyilir ki, onların şəriətlə bir əlaqəsi yoxdur.

İrşadi hökmlər iki qismə bölünür:

1. Ağıl baxımından lazımi və zəruri olanlara göstəriş verən hökmlər. Məsələn: Yaradana itaət etmək yaradılmışa vacibdir.

2. Ağıl baxımından qeyri zəruri olanlara göstəriş verən hökmlər. Yəni onlara riayət etmək daha bəyənilən və məqbuldur. Bu kimi əməlləri tərk etmək (ki, terminoloji cəhətdən “Tərki ovla” (yaxşını tərk) adlanır) günaha səbəb olmadığından peyğəmbərlərin isməti ilə heç bir ziddiyyət təşkil etməz. Məsələn: həkim xəstəyə məsləhət görür ki, filan qidanı qəbul etməsin. Həkimin bu anda verdiyi göstəriş bir qanuni məsuliyyət gətirməz. Necə ki, xəstə həkimin sözünə əməl etmədiyi təqdirdə onu cəzalandırmazlar. Xəstənin əməl etməməsi sadəcə onun sağalmasına əngəl olar və təkcə onun üçün ziyanvericidir. Bu göstərişə riayət etməyin hansı dərəcədə zəruri olması həkimin verdiyi göstərişin xəstəyə bağışladığı mənfi təsirin dərəcəsindən aslıdır.

**Günahın mənası**

Günah kəlməsi sonu pis nəticələnəcək xoşagəlməz əməllərə deyilir. Quranda “günah” kəlməsi bir çox mənalarda işlənmişdir. Kəlmənin lüğəti anlamını araşdıran alimlərin qənaətinə görə də sözdə işlənən hər günah sözünü şəri günahla eyniləşdirərək bir kəsin günahkar olmasını isbat etmək olmaz. Peyğəmbərlərin barəsində nisbət verilən günahın nə



olduğu barədə nəqli və əqli dəlillər mövcuddur.

Günah kəlməsinin verdiyi müxtəlif anlamlara nəzər salaq:

**A) Fiqh baxımından günah**

Fiqh baxımından günah Allahın zəruri hökmlərinə qarşı davranmaq – vacib bir əməli tərk və ya haram olana əməl etməkdən ibarətdir. İlahi peyğəmbərlər əqli və nəqli dəlillərə əsasən belə iş görməmişlər. Qurani-Kərim də onlara bu növ günah nisbəti verməmişdir.

**B) Məqama yaraşmayan günah**

Bu günahdan məqsəd harama əməl və vacibi tərk deyil, bəlkə “tərki ovla”, edərək onların şəxsiyyətinə yaraşmayan bir əmələ düçar olmaqdır. Bu hal bəzi peyğəmbərlərdə çox nadir hallarda baş vermişdir. Qurani-Kərimdə peyğəmbərlərin (ə) barəsində sözü gedən günah həmin elə bu növ günahdır.

Bəzən peyğəmbərlərdən bəzisi ani qəflət və diqqətsizlik ucbatından onların uca məqamına münasib olmayan bir əməli yerinə yetirmişlər. Bununla da adi insanlardan fərqli intizarı olan Allah-taala tərəfindən onlar etirazla qarşılanmışlar. Həqiqətdə onlar mühüm əmri pozmasalar da onlara yaraşmayan bir işi gördüklərindən dolayı onlara Allah günah nisbəti vermişdir. Lakin öncə dediyimiz kimi bu əməl onların məsumluqlarına heç bir xələl gətirməmişdir.

Cavab

# GÜNAHI VARMI?

## *Əgər Peyğəmbər (s) məsum idisə nədən dualarında günahlarına görə bağışlanmaq istəyirdi?*

Niyə Həzrət Peyğəmbər (s) istiğfar edirdi (əfv diləyirdi)? Əgər Peyğəmbər (s) məsum idisə və günaha düçar olmurdusa nədən dualarında günahlarına görə bağışlanmaq istəyirdi?

Bu sualın cavabını almaqdan ötrü aşağıdakı nöqtələrə diqqət yetirin:

1. Tövbə İslamda böyük ibadətlərdən biri hesab olunur. Necə ki, Allah Qurani-Kərimdə həqiqi möminləri belə vəsf edir:

«الصَّابِرِينَ وَ الصَّادِقِينَ وَ الْقانِتِينَ وَ الْمُنْفِقِينَ
وَ الْمُسْتَغْفِرِينَ بِالْأَسْحارِ »؛

“Onlar (müsibətlərə) səbr edən, (sözlərində və işlərində) doğru olan, (Allaha) itaət edən, mallarından fəqirlərə verən və sübh vaxtı (Allahdan) bağışlanmaq diləyənlərdir (sübh namazına qalxanlardır).” (Ali-İmran surəsi, 17-ci ayə)

Başqa bir ayədə isə oxuyuruq:

«كانُوا قَلِيلاً مِنَ اللَّيْلِ ما يَهْجَعُونَ.
وَ بِالْأَسْحارِ هُمْ يَسْتَغْفِرُونَ »؛

“Onlar gecələr (ibadətlə məşğul olub) az yatırdılar. Səhərlər isə (Allahdan) bağışlanmalarını diləyirdilər.” (Zariyat surəsi, 17-18-ci ayələr)

Göründüyü kimi Qurani-Kərim tövbəni möminlərin ən yaxşı əməli hesab etmiş və onları tövbə etməyə dəvət etmişdir:

«تُوبُوا إِلَى اللّٰهِ جَمِيعاً أَيُّهَا الْمُومِنُونَ لَعَلَّكُمْ تُفْلِحُون »؛

“Ey möminlər! Hamınız Allaha tövbə edin ki, nicat tapasınız! (Mətləbinizə çatasınız!)” (Nur surəsi, 31-ci ayə)

«إِنَّ اللّٰهَ يُحِبُّ التَّوَّابِينَ وَ يُحِبُّ الْمُتَطَهِّرِينَ »؛

“Həqiqətən də Allah tövbəkarları və pakları sevir”. (Bəqərə surəsi, 222-ci ayə)

Zikr olunan ayələrdən anlaşılır ki, tövbə ibadət olduğundan bütün möminlər ona dəvət olunmuşlar. Çünki tövbə İlahinin rəhmət qapılarının açılmasına, insanın Allaha yaxınlaşmasına səbəb olar və bəndənin İlahi dərgah qarşısında təvazökarlıq əlamətidir. Məhz elə bu üzdən İlahi övliyaların hər kəsdən daha qabaqcıl və layiqli şəkildə Allahın bu göstərişinə təslim olub əməl etmələri labüddür. Çünki Tanrıya yaxınlığı da məhz bu əməlləri ilə əldə etmişlər.

Tövbənin nədəni insanlara görə fərqlidir. Günahkarların tövbəsi günahdan tövbə, İlahi övliyaların tövbəsi isə Allahdan qeyrisinə bir anlıq diqqət yönəltdiklərinə görədir.

2. İlahi övliya və məsumlar öz əməllərini Allahın sonsuz məqamı qarşısında kiçik hesab etdiklərinə görə, ona layiq olmadığını düşündüklərindən hər zaman tövbə edirdilər.

3. Həzrət Peyğəmbərdən (s) bu məzmunda bir hədis nəql olunmuşdur:

«انّه ليُغان على قلبى و انّى أستغفراللّٰه فى كلّ يوم مائة مرّه»؛

“Gah qəlbimə toz qonur deyə mən hər gün yetmiş dəfə Allahdan bağışlanmaq diləyirəm.”

(Mustədrəkul-vəsail, c.5, səh.320)

4. Bizim istiğfar etməyimizlə ilahi övliyaların tövbə etmələri fərqlidir. Biz istiğfar edirik ki, gördüyümüz günahlarımız bağışlansın, onlar isə bağışlanma diləyirlər ki, günahdan amanda qalsınlar. Onlar tövbə və istiğfar etməklə əslində öz məsumluq dərəcələrini artırmış və qorumuş olurlar.

5. Peyğəmbərin (s) daim İlahi dərgaha tövbə edərək bağışlanmaq istəməsi ümmətin tərbiyəsi üçün müsbət təsir göstərir. O, bu hərəkəti ilə başqalarına Allah dərgahında necə tövbə etməyi və az əməllərinə görə qürurlanmamağı öyrətmiş olur.

6. Allah, hicrətin 8-ci ilində nazil etdiyi “Nəsr” surəsində Peyğəmbərə xitab edərək buyurur:

«إِذا جاءَ نَصْرُ اللّٰهِ وَ الْفَتْحُ. وَ رَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فى دين اللّٰهِ أَفْواجاً.
فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَ اسْتَغْفِرْهُ إِنَّهُ كانَ تَوَّاباً»؛

“(Ya Peyğəmbər!) Allahın köməyi və zəfər (Məkkənin fəthi) gəldiyi zaman, insanların dəstə-dəstə Allahın dininə (İslama) daxil olduqlarını gördüyün zaman Rəbbini həmd-səna ilə təqdis et (Onu bütün naqis sifətlərdən uzaq tutub pak bil, “Sübhanəkə Allahummə və bihəmdikə” kəlməsini de) və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!” (Nəsr surəsi, 1-3-cü ayələr)

Bu ayədə Peyğəmbərə (s) ona görə günah nisbəti verilmişdir ki, Həzrət (Məkkə müşriklərinin məğlubiyyəti və müsəlmanların zəfəri barəsində) İlahi vədənin həyata keçməsində darıxıb nigarançılıq keçirmişdir. İlahi vədə həyata keçdikdən sonra Allah Peyğəmbərdən (s) Allahın vədəsinin haqq olduğunu bilə-bilə sıxıntı keçirdiyinə görə ondan istiğfar etməyi istədi.

# İslam Peyğəmbərinin (s) günahının əfv olunması doğrudurmu?

Allah-taala Tövbə surəsində buyurur: “Allah səni bağışlasın”. Bu söz onu bildirmirmi ki, Peyğəmbər günah və ya xəta edibdir ki, Allah onu bağışlayır.

Ayə belədir:

عَفَا اللّٰهُ عَنْكَ لِمَ أَذِنْتَ لَهُمْ حَتَّى يَتَبَيَّنَ لَكَ الَّذِينَ صَدَقُوا وَتَعْلَمَ الْكَاذِبِينَ

“Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmadan, yalançıları tanımadan əvvəl nə üçün onlara (cihadda iştirak etməməyə) izin verdin?”

(Tövbə - 43)

Allah bu sözü «عَفَا اللّٰهُ عَنْكَ» (Allah səni bağışlasın) buyurmaqda məqsədi Peyğəmbərin (s) günah və xəta etməsi deyil. Bu mətləbin daha da aydın olması üçün aşağıdakı izahlara diqqət edək:

1. Bu cümlə tərifqarışıq duadır. Bəzi böyük şəxsiyyətlər onu azərbaycan dilində işlənən “Allah səni bağışlasın” kimi sözə oxşar mənada tutaraq, birinin barəsində günah nisbəti verilmədən də dua niyyəti ilə söylənən ərəbcə bir ifadə olduğu qənaətindədirlər.

2. Ayə zahirdə Peyğəmbəri (s) danlasa da həqiqətdə izn verilmiş münafiqlərin rəzalətini bildirir.

Yəni nədən onlara iştirak etməmək izni verdin və onların ləyaqətləri olmadan yersiz üzrlərini qəbul etdin? Niyə qoymadın ki, onların rəzillikləri üzə çıxsın?

Yəni sənin icazə verməyin günah deyil, sadəcə onların izn almağa ləyaqəti yoxdur. Beləliklə Allah Peyğəmbəri (s) danlayırmış kimi davranaraq üzrü olmadan cihaddan üz döndərənlərə sərt münasibət bildirir. İmam Rza (ə) bu barədə buyurur: «Bu ayə Peyğəmbərə (s) eyham olaraq nazil olmuşdur.

«ايّاك اعنى و اسمعى يا جاره»

“Qapıya deyirik ki, divar eşitsin” məsəlindəki kimi (yəni, qızım sənə deyirəm, gəlinim sən eşit).

3. Ərəbcə «عَفَا اللّٰهُ عَنْكَ» (Allah səni bağışlasın) cümləsi ərəblər arasında çox məşhur bir ifadədir ki, o dinləyicinin təqsirkar olduğundan xəbər vermir. Necə ki, hədis və rəvayətlərdə Peyğəmbərin (s) haqqında bu cümlə çox işlənmişdir. Tarixi misal: Zeyd ibn Əli nəql edir: Allahın Rəsulu (s) buyurdu, otaqda yatırdım, Cəbrail (ə) otağa daxil olub məni tərpədərək dedi: «عَفَا اللّٰهُ عَنْكَ», «Ey Muhəmməd qalx, miniyə əyləş, sonra Allahın dərgahına daxil ol...».

Bu hədis Merac hadisəsini anladır. Həmin hadisədə Həzrət Peyğəmbərin (s) heç bir günah törətməyindən söz getmir. Əksinə, Cəbrail (ə) bu cümləni işlətməklə Peyğəmbərin (s) daha da əzəmətini göstərmişdir.

Buna oxşar ifadələr onun tərəfdarları tərəfindən Əhli-beytin haqqında da heç bir günaha dəlalət etmədən işlənmişdir. Əhli-beytin bəzi dostları da onlara xitab edərək «أصلحك الله», yəni «Allah səni islah etsin». Ola bilsin ki, bu sözü eşidərkən kimlərsə İmamların fəsad törətdiklərini anlasın. Bir halda ki, həqiqət belə deyildir. «Allah səni islah etsin» cümləsi həmin zamanlar xoşməramlılıq mənasında işlənilirdi.

# Həcc savabına bərabər namaz



Allah evinin ziyarətinə nail ola bilməyən möminlərin sayı ölkəmizdə az deyil. Amma təəssüflənməyə dəyməz. Hz.İmam Sadiq(ə) biz müsəlmanlara bir namaz öyrədib ki, həmin namazı qılan şəxs Həcci yerinə yetirən şəxsin savabına nail olur.

Hz.İmam Sadiq(ə) buyurmuşdur: “Atam Məhəmməd Baqir(ə) mənə buyurdu: “Oğlum, Zilhiccə ayının ilk on günlüyündə şam və xiftən namazları arasında olan namazı heç vaxt tərk etmə. Həmin namaz iki rəkətdən ibarətdir; hər rəkətdə Fatihə surəsindən sonra Əraf surəsinin 142-ci ayəsini oxu. Əgər həmin namazı qılarsansa, baxmayaraq ki, Həccə getməmisən amma Həcc əməli yerinə yetirmiş şəxsin savabına nail olarsan”.



# 86 -CI SURƏ

# *TARİQ* SURƏSİ




***(«TARİQ» «GECƏ GƏLƏN KƏS» DEMƏKDİR; MƏKKƏDƏ NAZİL OLMUŞDUR).***

İmam Sadiq (ə) buyurdu: Bir kəsin vacibi namazlarda oxuduğu “Əssəma vəttariq” surəsi olsa, Qiyamət günündə Allah yanında məqam və mənsəb sahibi olub, Behiştdə Peyğəmbərlərin (ə) və dostlarının həmdəmlərindən olacaqdır.

Allahın Rəsulu (s): ət-Tariq surəsini oxuyan kəsə Allah səmadakı ulduzların sayı qədər on həsənə bağışlayar.

Hər kəs bu surə oxunmuş suyu yaranın üzərinə töksə, inşaallah şəfa tapar.

Möhtəlim olmamaq (cünub) üçün yatanda aşağıdakı ayəni oxusun: “Yəxrucu min bəynissulbi vəttaraib. İnnəhu əla rəc`ihi ləqadir.” (Tariq 7-8).

İmam Sadiq (ə) buyurdu: Əgər yatanda Tariq surəsini oxusalar, möhtəlim olmaqdan amanda qalarlar.

Hacətlərin qəbul olunmasına, və yüksək dərəcələrə nail olmaqdan ötrü bu surəni həftənin günlərində hər gündə dörd dəfə oxusa mətləbinə çatar, inşaallah.

Şənbə günü Fəth surəsini, bazar günü Yasin surəsini, birinci günü Vaqiə surəsini, ikinci günü Ərrəhman surəsini, üçüncü günü Qul uhiyə (Cin) surəsini, dördüncü günü Təbarək (Mülk) surəsini, cümə (beşinci) günü isə əlif-lam-mim Səcdə surəsini oxusun.

Həzrət Əmirəl-mö`minin Əli (ə) buyurdu: Hər kəs Quranın hansı surəsindən olursa-olsun yüz dəfə oxuyub, sonra Ya Allah desə, əgər daşa belə oxusa Allah o daşı yarar. («Səfinətul bihar» 1-səh-446)



***(«TARİQ» «GECƏ GƏLƏN KƏS» DEMƏKDİR; MƏKKƏDƏ NAZİL OLMUŞDUR).***

***SUALLAR:***

***«Tariq» dedikdə kimlər nəzərdə tutulur və surədə bu barədə nə üçün danışılır?***

***İnsanın ulduza oxşarlığı nədir?***

***İnsan öldükdə onun əməlləri puç olub gedir, yoxsa o mühakimə olunur?***

***Allah üçün insanın yaranışının çətin olmaması surədə hansı şəkildə bəyan olunur?***

***SURƏNİN MƏTNİ HAQQINDA:***

***«Tariq», ailəsinin yanına gecə qayıdan adama deyirlər. Amma bu surədə tariq ulduza işarədir. Çünki ulduz da gecələr görünür. Surə səmavi tariqə andla başlayır: «And olsun göyə və gecə gələnə, sən nə bilirsən ki, gecə gələn nədir?! O parlaq ulduzdur; Elə bir kimsə yoxdur ki, onun üstündə bir gözətçi olmasın.»***

***Bəli, gündüzlər səmada bir dənə də olsun ulduz görünmür. Gecələr isə onlar sanki yenidən canlanırlar. İnsan da belədir. Mələklər Allahın əmri ilə insanın ruhunu onun ölümündən sonra da hifz edirlər. İnsan öldükdə onun ömür yolu qapanmır. Əksinə, qiyamət günü o ikinci həyata qədəm qoyur. Axirət həyatının necəliyini dünya həyatı müəyyən edir. 5-10-cu ayələrdə oxuyuruq: «İnsan nədən yaradıldığına bir baxsın; o axıb tökülən bir sudan yaradılmışdır; O su bel sümüyündən, köks sümüyündən çıxar; Həqiqətən, Allah insanı yenidən diriltməyə qadirdir; Bütün sirlərin aşkar olacağı o qiyamət günü; İnsanın nə bir qüvvəsi, nə də köməkçisi olar.»***

# CƏMKƏRAN MƏSCİDİ



***Cəmkəran məscidinin tikilməsinə verilən fərmanın tarixi 293-cü hicri qəməri ili (1129-cu il) ramazanın 17-nə təsadüf edir.***

***Şeyx Səduqun müasiri olan "Qum tarixi" kitabının müəllifi Həsən ibn Muhəmməd ibn Həsən Qumi həzrət Məhdi Sahib əz-Zamanın (ə) göstərişi ilə Cəmkəran məscidinin inşasını Şeyx Səduqun "Munis ül-həzin fi-mərifəti-l-həqq əl-yəqin" adlı əsərlərindən belə nəql edir:***

Həsən ibn Müslə Cəmkərani deyir: "293-cü il (h.q) ramazan ayının 17-də, çərşənbə axşamı öz evimdə yatmışdım. Gecə yarısı idi. Birdən bir qrup evimə gəldilər və məni yuxudan oyatdılar və dedilər: Qalx və həzrət Məhdi Sahib əz-Zamanın (ə) əmrini yerinə yetir ki, səni tələb edir."

Həsən ibn Müslə deyir: "Qalxdım və hazırlaşdım və yola düşdüm. Evimin qapısına yaxınlaşanda böyüklərdən bir qrupunu gördüm. Salam verdim. Salamımın cavabını verdilər, xoşgəldin dedilər və məni indi Cəmkəran məscidinin yerləşdiyi yerə apardılar. Baxdım, gördüm ki, orada, üzərinə gözəl bir xalça salınmış və yaxşı balışlar qoyulmuş bir taxt qoyulmuşdu. Təqribən otuz yaşlı bir cavan taxtın üstündə balışlara söykənmiş, əlindəki kitabı onun üçün oxuyan bir qoca da onun yanında əyləşmişdir. Bəzilərinin libası ağ, digərlərinin libası yaşıl olan altmış nəfərdən çox adam həmən cavanın ətrafında namaz qılırdılar. Həzrət Xızr (ə) olan həmən qoca məni taxtın üstündə oturtdu və həzrət imam Məhdi (ə) məni öz adım ilə çağırdı və buyurdu: " Get, Həsən ibn Müslümə de ki, sən neçə ildir bu torpağı abadlaşdırırsan və biz dağıdırıq. Beş ildir əkinçilik edirsən, bu il yenidən əkinçiliyə başlamısan. Bu torpaqdan qazandığın bütün xeyri qaytarmalısan ki, həmən yerdə (əkinçilikdən alınan gəlirlə) məscid tiksinlər. Həsən ibn Müslümə de ki, bura şərif bir torpaqdır. Allah-Təala bu məkanı digər yerlərdən ayırıb dəyərləndirmişdir. Sən oranı tutub öz torpağına birləşdirmisən. Allah iki cavan oğlunu səndən aldı, hələ də ayılmadın. Əgər bu işdən uzaqlaşmasan, Allah sənin güman edə biləcəyin qədər bəla göndərər."

Həsən ibn Müslə ərz etdi: "Ey mənim mövlam! Bir əlamət və ya nişanəni mənim ixtiyarıma verməlisən. Çünki adamlar mənim sözümü əlamət və nişanəsiz qəbul etməzlər." İmam Məhdi (ə) buyurdu: "Seyyid Əbülhəsənin yanına get və ona de ki, qalxsın və gəlsin və o kişi (Həsən ibn Müslimi) gətirsin, neçə illik mənfəəti ondan alsın və başqalarına versin ki, məscid binasının tikintisinə sərf etsinlər. Qalan pulları mülkümüz olan Ərdəhalda yerləşən Rəhəqdən gətirsin və məscidin inşasını bitirsin. Rəhəqin yarısını bu məscid üçün vəqf etdik ki, illik gəlirini əldə etsin və məscidin tikilişinə sərf olunsun.

Adamlara de! Bu yeri sevsinlər və onu əziz tutsunlar və orada dörd rəkət namaz qılsınlar. İki rəkəti məscidin mübarəkliyi, qalan iki rəkəti imam Sahib əz-Zaman (ə) üçün qılsınlar. Məscid üçün qılınan namazın hər rəkətində bir dəfə əl-Həmd, yeddi dəfə

**Qul hüvəllahu əhəd..** (İxlas surəsini)

yeddi dəfə rüku və sücudu oxusunlar. İmam Zamanın (ə) namazında Həmd surəsinin

**İyyakə nəbudu və iyyakə nəstəin...**

ayəsinə çatanda onu yüz dəfə oxusunlar, ikinci rəkətdə də həmən yolla yerinə yetirsinlər, rüku və sücudun təsbihini hər iki rəkətdə yeddi dəfə oxusunlar. Namazdan sonra bir dəfə təhlil (لا اله الا الله) desinlər. Sonra Fatimeyi Zəhranın (ə) təsbihini desinlər, daha sonra başlarını səcdəyə qoyub yüz dəfə peyğəmbər və ailəsinə salavat göndərsinlər."

**فمن صلاهما فكانما صلي في البيت العتيق**

"Kim bu iki rəkəti (ya bu iki namazı) qılsa, sanki onu Kəbə evində qılmışdır."

Həsən ibn Müslə deyir: "Öz ürəyimdə dedim: "Sən buranı adi yer bilirsən, bura Sahib əz-Zamanın (ə) məscididir." Sonra o həzrət mənə işarə etdi ki, get.

Bir qədər yol getmişdim ki, yenidən məni səslədi və buyurdu: “Cəfər Kaşaninin (çoban) sürüsündə bir keçi var ki, onu almalısan. Əgər adamlar pulunu versələr, onların pulu ilə al, əgər verməsələr, pulunu özün ödə. Sabah axşam (yəni çərşənbə axşamı) o keçini gətir və bu yerdə (məscidin kənarında) başını kəs. O keçinin ətini ramazan ayının 18-i ağır xəstəliyi olan xəstələr arasında bölüşdür ki, Allah-Təala hamısına şəfa versin. O keçi ala-buladır, çoxlu tükləri vardır, bir tərəfində hər biri dirhəm ölçüsündə yeddi ağ-qara nişanı, digər tərəfində dörd nişanı vardır.”

Həsən ibn Müslə deyir, hərəkət etdim. Bir daha həzrət Məhdi (ə) məni səslədi və buyurdu: “Yetmiş (ya yeddi) gün burada sakin ol.”

Həsən ibn Müslə deyir: “Evimə qayıtdım və bütün gecəni səhərə qədər fikirlə keçirtdim. Namazdan sonra Əli ibn Münzərin yanına getdim, gecənin hadisəsini onun üçün danışdım. Sonra onunla həmən məscidin yerinə getdik. O dedi: “ Allaha and olsun ki, imamın (ə) buyurduğu nişanə burada qoyulmuşdur.” Baxdıq gördük ki, məscidin hüdudları mıxlar və zəncirlərlə müəyyən olunmuşdur.

Sonra Əli ibn Münzərlə Seyyid Əbülhəsənin yanına getdik. Evinə çatanda xidmətçiləri dedilər: “Siz Cəmkərandan gəlirsiniz?” Dedik: “Bəli.” Dedilər: “Seyyid Əbülhəsən dan yeri söküləndən sizi gözləyir.”

Həsən ibn Müslə deyir: “Seyyid Əbülhəsənin evinə daxil oldum və salam verdim. Məni xoşüzlə qarşıladı və yaxşı bir yerdə oturtdu, bir söz deməmişdim ki, o, sözə başladı və belə dedi: Ey Həsən ibn Müslə! Mən yatmışdım. Yuxu aləmində bir şəxs mənə dedi: Səhər Həsən ibn Müslə adlı bir şəxs Cəmkərandan yanına gələcək. Onun dediyinə inan və sözlərini təsdiq et ki, sözü bizim sözümüzdür, əsla sözünü rədd etmə. Yuxudan oyanıb bu saata qədər səni gözləyirəm.”

Həsən ibn Müslə macəranı aydın şəkildə Seyyid Əbülhəsənə danışdı. Seyyid Əbülhəsən Rizayi göstəriş verdi. Atları cilovlayıb süvar oldular və Cəmkərana tərəf yola düşdülər. Cəmkəranın yaxınlığında çoban Cəfəri gördülər ki, sürüsü yolun kənarında otluqdadır. Həsən ibn Müslə sürünün ortasına getdi, imam (ə)



buyurduğu o keçini gördü ki, sürünün arxasından ona tərəf qaçdı.

Həsən o keçini tutdu və pulunu ödəmək istədi, çoban Cəfər dedi: “Allaha and olsun ki, bu keçini mən indiyə qədər görməmişəm.” Nə qədər etdim, pulunu götürmədi. Sonra o keçini təyin olunan yerə gətirdilər və orada başını kəsdilər.

Seyyid Əbülhəsən məscidin ətrafındakı mıx və çubuqları Quma gətirib evində saxladı. Ağır xəstəliyi olan xəstələr gəlib özlərini o zəncirlərə sürtürdülər və şəfa tapırdılar.

Qumda yaşayan Seyyid Əbülhəsən vəfat edəndən sonra övladı bərk xəstələndi, otağa daxil oldu, sandıqların qapağını açdı ki, özünü mıxlara və zəncirlərə sürtsün ki, şəfa tapsın, onları tapmadı.



# ŞAH İSMAYIL SƏFƏVİ XƏTAİ kim olub?



***Şah İsmayıl Səfəvi Xətai – 14 yaşında hakimiyyətə gələn, 14 ilə 14 eli birləşdirərək, vahid və indiyə qədər ən böyük Azərbaycan dövləti – Səfəvi dövlətini yaradan bir şəxsiyyətdir.***

***Şah İsmayıl Səfəvi Xətai – ilk dəfə türk dilini rəsmi dövlət dili elan edən dövlət başçısıdır. Halbuki, özlərini türk varisi hesab edən Osmanlıda dövlət dili fars dili idi. Bunun nəticəsidir ki, Azərbaycan dilində fars sözləri istifadə olunduğu kimi, fars dilində də türk sözləri öz yerini tapıb.***

Şah İsmayıl Səfəvi Xətai – ilk dəfə türk dilində heca vəznində şeir yazan şairdir. Onun türk dilində yazdığı gözəl şeirlər meydana gəldikdə şeiriyyata öz damğasını vurmuş fars dili ikinci plana keçdi. Məhz onun başlatdığı ənənə nəticəsində Məhəmməd Füzuli kimi dahi yetişdi.

Şah İsmayıl Səfəvi Xətai – ilk dəfə güləşi döşək üzərinə gətirən pəhləvan idi. Onun vaxtında zorxanalar, yəni güləş məşq zalları açılmışdır və Azərbaycana xas bu idman növü geniş yayılmışdır.

Şah İsmayıl Səfəvi Xətai – dahi strateq idi. Öz qoşunlarını 12 İmamın (ə) eşqinə 12 yerə bölərək, aypara şəklində düzərdi. Bu düzülüş zəif mərkəzə və güclü cinahlara malikdir. Düşmən zəif mərkəzi əzməklə məşğul olduğu zaman, güclü cinahlar düşməni əhatə edir, qoşunu mühasirəyə alıb darmadağın edirdi. Gələcəkdə bu strategiyanı Həzi Aslanov öz tankları ilə həyata keçirəcək və ona ruslar "Aslanovskaya podkova", yəni "Aslanov nalı" adını verəcəklər.

Şah İsmayıl Səfəvi Xətai – bir fateh idi. Tarixi Azərbaycan torpaqlarını: Şimali Ağqoyunlu və Şirvanşahlar dövlətini (Albaniya), Cənubi Ağqoyunlu dövlətini (Atropatena) və Qaraqoyunlu dövlətini (Anadolu) birləşdirərək, vahid Azərbaycan dövləti olan Səfəvilər dövlətinin banisidir. Şah İsmayıl döyüşdə hücum taktikasına üstünlük versə də, heç vaxt yürüş edib qonşu dövlətlərin ərazisini zəbt və qəsb etməyib. Onun hər bir yürüşünün ya kiminsə onun dövlətinə meydan oxuması, ya da bir məzlumun imdadı nəticəsində olub. Bu da fatehlərə xasdır.

Şah İsmayıl Səfəvi Xətai – zəmanəsinin dindar lideri idi. O, Bağdada daxil olarkən Bağdad əhli onu məhz belə tanıyaraq könüllü surətdə şəhərin qapılarını onun üzünə açıb onu alqışla qarşıladı. Yalnız onun qurduğu hökümət dövründə əsrlər boyu inanclarına görə təqib olunan Əhli-Beyt (ə) ardıcılları rahat nəfəs ala bildilər. O, ilk dəfə olaraq Əhli-Beyt (ə) məktəbini dövlət dini kimi elan etdi. Şah İsmayılın əmri ilə dövrün fiqh aliminin risaləsi şəriət qanunu kimi təsdiq olundu. Onun dövründə bir çox Əhli-Beyt (ə) alimi yetişərək, ölkədən kənarda da İslamı yaymağa başladı. Məhz bunun nəticəsidir ki, indi Anadoluda, Gürcüstanda, Orta Asiyada, Kəşmirdə, Pakistanda, Hindistanda və digər ölkələrdə Əhli-Beyt (ə) ardıcılları yaşayır. Çünki, bu bölgələrə İslamı həmin zamanda yetişən azərbaycanlı alimlər yayıb.

Şah İsmayıl Səfəvi Xətai – ağlasığılmaz cəsarətə malik bir bahadır idi. Başqa dövlət başçıları çadırlarından döyüşü izlərkən, hələ 14 yaşı tamam olmamış İsmayıl, qoşunun önündə hücuma keçirdi. Şirvana yürüş zamanı Kür çayı daşır, qoşunun yolunu sel alır. Qoşunda

tərəddüd yayıldığını görən Şah İsmayıl atıyla birgə çaya atlayır. Onun dalınca digər sərkərdələr və qoşun də çayı yararaq qarşı sahilə keçir.

Çaldıran döyüşündən öncə o, Sultan Səlimə meydan oxuyaraq onu döyüşə dəvət etdi. Lakin Sultan Səlim qorxaraq öz yerinə Osmanlıda yenilməz sayılan Malqoçoğlunu göndərdi. Şah İsmayılın ətrafı: "Şaha bir sərkərdə ilə vuruşmaq yaraşmaz" dedi. O isə cavab verdi – "İstəmirəm sonra döyüşə qorxub çıxmadı desinlər". Şah İsmayıl Malqoçoğluna elə bir zərbə endirdi ki, hər iki tərəf heyrətdən alqış dedi. Onun qılıncı Malqoçoğlunun dəbilqəsini, zirehini və qalxanın bir hissəsini yararaq, Malqoçoğlunu başından iki yerə bölmüşdü. Elə həmin döyüşdə o, qılıncla topun lüləsini kəsmişdi.

Şah İsmayıl Səfəvi Xətai – ədalətli hakim idi. Məlumdur ki, Şah İsmayıl Osmanlı dövləti ilə vuruşmaq istəmirdi. Lakin şərqində güclü qonşu istəməyən Sultan Səlim, 200 minlik qoşunla Azərbaycana yürüş etməyə qərarlı idi. Buna görə də Şah İsmayıl qərara gəlir ki, Osmanlı qoşununun qarşısına çıxacaq bütün torpaqları yandırıb yararsız hala salsın. Məqsəd - düşmən qoşununun ac, susuz qalıb əldən salaraq geri qaytarmaq idi. Bunun üçün Şah İsmayıl torpaq sahiblərinin ziyanları müqabilində onları neçə illik vergidən azad etdi.

Şah İsmayıl Səfəvi Xətai – döyüşlərdə yenilməyən sərkərdə idi. "Ya Əli!" sədası ilə özündən neçə dəfə çox sayda olan qoşuna hücum edib, qalib gələrdi. Buna misal kimi Şah İsmayılın 7 minlik qoşunla Ağqoyunlu Əlvəndin 30 minlik qoşununa hücum edib qalib gəlməsini, 12 minlik qoşunla Ağqoyunlu Muradın 70 minlik qoşununa hücum edib qalib gəlməsini və digərləri göstərmək olar. İstisna yalnız Çaldıran döyüşü oldu. Sultan Səlimin 200 minlik qoşunu, 300 topuna qarşı Şah İsmayıl 20 minlik süvari ordu ilə çıxmışdı. Döyüş 3 gün davam etdi. Qızılbaşlar görünməyən qəhrəmanlıq göstərərək, qalib gələ də bilərdi. Lakin Sultan Səlim Yavuz elə bir işə qol atdı ki, qalib gəldi, amma özünü rüsvay etdi. O, əmr etdi ki, yerdə qalan topların lülələrini yuxarı qaldırsınlar. Bu zaman toplar döyüş meydanına atəş açdı və nəticədə hər iki tərəfin əskərləri həlak oldu. Qızılbaş ordusu süvarı olduğu üçün mərmilər onlara daha çox təsir etdi, çünki atlar partlayışdan hürkürdü. Nəticədə qızılbaş ordusu 5 min nəfər, osmanlı ordusu isə 30-40 min arası itki verdi.

Şah İsmayıl Səfəvi Xətai – yenilikçi dövlət başçısı idi. Onun dövründə bir yeni islahatlar həyata keçirilmişdi. Bir məsələyə diqqətinizi yönəltmək istəyirəm. Biz sahib olduğumuz üçrəngli bayrağa görə Məhəmməd Əmin Rəsulzadəyə borcluyuq. Bu, sadəcə bir bayraq deyil. Bu, Azərbaycanın inkişafının düsturudur. Yalnız bayrağımızda olan bu üç çaları inkişaf etdirməklə



Azərbaycan hərtərəfli inkişaf edib qüdrətlənə bilər. Diqqət etsək, görərik ki, bayrağımızın özülünü Şah İsmayıl Xətai qoyub. Məhz o, tarixdə ilk dəfə Azərbaycan dövlətini bu istiqamətlərdə inkişaf etdirib: ana dilimizi rəsmiləşdirərək – türkçülüyü; yeniliklər edərək – müasirçiliyi; şəriətin əsasında qanunlar yaradaraq – dindarlığı.

Şah İsmayıl Səfəvi Xətai – İmam Əli (ə) aşiqi idi. Yuxarıda sadalanan bütün xüsusiyyətləri ilə o, əslində Həzrətə (ə) borcludur. Şah İsmayıl Xətai üçün ideal nümunə İmam Əli (ə) idi. Onun bütün cəsarətinin, mərdliyinin, uğurlarının səbəbi bu eşqdə idi – Əli (ə) eşqində.

Alimin dediyi kimi, Şah İsmayılı indiki zəmanə ilə müqayisə etmək düzgün deyil. Belə etsək, biz onda minlərlə hüquq pozuntuları və digər səhvlər taparıq. Düzdür, Şah İsmayıl Xətai ideal deyil və onun özünün öz dövrünə görə də səhvləri olub. Ancaq bu şəxsiyyətin Azərbaycan üçün etdikləri danılmazdır. Onda ləkə axtarıb rüsvay etmək istəyənlər, əvvəlcə Şah İsmayıl Səfəvi Xətainin yüzdə birini Azərbaycan üçün etsinlər. Heç bir dövrdə azərbaycanlının hökmü Gürcüstandan Fars körfəzinə qədər, Orta Asiyadan Bağdada qədər, Anadoludan Hindistana qədər keçməyib. Bax, əsl yeridir ki, deyəsən: "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!"

Şah İsmayıl Xətai haqqında həftələrlə silsilə yazılar yazmaq olar. Ancaq elə özünün də etdiyi kimi, 12 İmam (ə) eşqinə burada onun 12 xüsusiyyətini sizin nəzərinizə çatdırdım. İndi özünüz deyin: bu şah hər hansı bir şahla müqayisə oluna bilərmi?

**Hüseyn Zəlzələ**
"Dəyərlər"

# HƏZRƏT PEYĞƏMBƏRDƏN (S) MARAQLI MƏLUMATLAR

Əbuzər deyir: “Bir gün Peyğəmbər (s) məsciddə oturmuşdu. Məscidə daxil oldum. Fürsəti qənimət bilib həzrətə (s) yaxınlaşdım. Üzünü mənə tutub buyurdu:

–Əbuzər, məscidin təhiyyəti var.

Ərz etdim:

–Məscidin təhiyyəti nədir, ya Rəsuləllah?

Buyurdu:

–İki rəkət namaz.

Ərz etdim:

–Ya Rəsuləllah, siz bizə namazı tövsiyə edirsiniz. Bilmək istəyirəm ki, namaz nədir?

Həzrət buyurdu:

–Namaz əməllərin ən üstünüdür. Hər kəs istəyir az yerinə yetirsin, hər kəs də istəyir çox yerinə yetirsin.

–Ya Rəsuləllah, Allah yanında ən sevimli əməl hansıdır?

–Allaha iman və Onun yolunda cihad.

–Gecənin hansı vaxtı daha fəzilətlidir.

–Gecə yarısı

–Namazın ən fəzilətli hissəsi hansıdır?

–Uzun qunutu.

–Hansı sədəqə daha üstündür?

–Yoxsul olan vaxtında ehtiyaclı olan qocaya verilmiş sədəqə.

–Ya Rəsuləllah, oruc nədir?

–Allahın qat-qat artıq əvəzini verəcəyi və dinin yerinə yetirilməsi vacib olan əməllərindən biri.

–Bəs, hansı bəndənin azad edilməsi daha artıq savaba malikdir?

–Qiyməti ən baha olub, sahibi yanında ən nəfis hesab edilən qulun.

–Ən əfzəl cihad hansıdır?

–Atından salınaraq qanı tökülən cihad.

–Qur`anın ən üstün ayəsi hansıdır?

–Ayətəl-kürsi.

–Ya Rəsuləllah, peyğəmbərlərin sayı neçədir?

–Yüz iyirmi dörd min.

–Mürsəl peyğəmbərlərin sayı neçədir?

–Üç yüz on üç nəfər.

–Birinci peyğəmbər kim olub?

–Həzrət Adəm (ə)

–Ya Rəsuləllah, həzrət Adəm (ə) də mürsəl peyğəmbər olub?

–Bəli, Allah-təala onu Öz qüdrət əli ilə yaradıb Öz ruhundan ona ruh verdi. Əbuzər, peyğəmbərlərdən dörd nəfəri–Adəm, Şiys, Əxnux, yə`ni İdris (birinci dəfə yazı yazan şəxs) suriyalı olmuşdur. Dörd nəfəri də ərəb olmuşdur; Hud, Saleh, Şüeyb və sənin peyğəmbərin Məhəmməd. İsrailli peyğəmbərlərin birincisi Musa (ə), axırıncısı da, İsa (ə) olmuşdur. Bu iki peyğəmbər arasında da Bəni-İsrailə altı yüz peyğəmbər göndərilmişdir.

–Ya Rəsuləllah, Allah tərəfindən neçə kitab nazil olmuşdur?

–Dörd kitab. Əlli səhifə Şeys peyğəmbərə, otuz səhifə İdris peyğəmbərə, iyirmi səhifə İbrahimə, Tövrat, İncil, Zəbur və Qur`an.

–Ya Rəsuləllah, İbrahimin səhifəsi nə idi?

–Orada olanların hamısı məsəl və öyüd-nəsihətlərdən ibarət idi. O cümlədən orada belə yazılmışdı: “Ey məğrur padşah! Mən səni dünya malı cəm etməkdən ötrü göndərməmişəm, Mən səni bu vəzifəyə qoymuşam ki, qoymayasan məzlumların ahı Mənim dərgahıma ucalsın. Mən məzlumun duasını kafir də olsa geri qaytarmaram. Ağıllı insan heç bir üzrü olmadığı halda gərək öz vaxtının bir hissəsini öz Pərvərdigarı ilə münacata, özündən haqq-hesab çəkməyə, yaradılış aləmi barədə təfəkkür və düşüncəyə, halal ləzzətlərdən istifadə etməyə sərf etsin. Eləcə də, ağıllı şəxs gərək öz zəmanəsinin vəziyyətindən agah olsun, öz işləri ilə məşğul olsun, dilini artıq danışıqdan və faydasız sözlərdən qorusun. Ağıllı insan gərək daim üç şeyin ardınca olsun; yaşayışının rifahı və islahı, axirət tədarükü və halal ləzzətlər ardınca.”

–Musanın kitabı hansı dildə idi.

–İbrani dilində. Orada belə yazılmışdı: “Təəccüb olunmalı şəxs o kəsdir ki, öləcəyini yəqin bilir, lakin şadlıq edir və o kəs ki, atəşin mövcudluğuna yəqini var, lakin

gülür və o kəs ki, dünyanın insanları tar-mar etdiyini görür, lakin ona bel bağlayır və e`tibar edir və o kəs ki, qəza-qədərə imanı var, lakin yersiz təlaş edir və o kəs ki, sabahın haqq-hesabına yəqini var, lakin əməl etmir.”

–Ya Rəsuləllah, sizə nazil olan Qur`anda elə bir şey varmı ki, İbrahimin və Musanın da səhifələrində olmuş olsun?

Həzrət (s) bu ayələri oxudu:

Öz nəfsini paklayan, Rəbbinin adını zikr edib namaz qılan nicat tapdı. Siz dünya həyatını seçirsiniz, axirət isə daha xeyirli və əbədidir. Həqiqətən bunlar əvvəlki səhifələrdə də var idi. İbrahimin və Musanın səhifələrində.

–Ya Rəsuləllah, mənə bir nəsihət ver.

–Sənə təqvalı olmağı tapşırıram. Bu bütün işlərin başıdır.

–Bir az da artırın.

–Qur`an oxumağı əldən vermə və Allahı çox yad et. Belə etsən, səni də asimanda yad edərlər və nurani olarsan.

–Bir az da əlavə edin.

–Cihadı unutma, çünki o, mənim ümmətimin dünyaya arxa çevirməsidir.

– Bir az da əlavə edin.

–Sənə uzun-uzadı sükutu tövsiyə edirəm. Çünki, bu əməl şeytanı uzaqlaşdırar, sənə din işlərində kömək edər.

–Bir az da artırın.

–Çox gülməkdən çəkin. Bu iş qəlbi öldürər və üzün təravətini aparar.

–Bir az da əlavə edin.

–Həmişə özündən aşağıdakılara nəzər sal, özündən yuxarıdakılara yox. Əgər belə etsən Allahın sənə verdiyi ne`mətləri dəyərsiz hesab etməzsən.

–Bir az da əlavə edin.

–Öz qohumlarınla sənə qarşı bədrəftar olsalar da, xoş rəftar et.

–Bir az da əlavə edin.

–Yoxsulları və onlarla yoldaşlığı sev.

–Bir az da əlavə edin.

–Acı olsa da həmişə haqqı de.

–Bir az da əlavə edin.

–İlahi işlərdə heç kəsin danlağından qorxma.

–Bir az da əlavə edin.

–Özündə olan eybləri başqalarında axtarma, öz etdiyin işlərə görə başqalarına qəzəblənmə. Kişi üçün bu eyb bəsdir ki, bu üç xislət onda olsun; eyni bir eybi özündə görmür, başqalarında görür, özündə pis və qəbih işlər var, lakin, həmin işləri başqalarında görəndə utanır və nəhayət, üçüncüsü budur ki, boş-boş məsələlər üstündə öz yoldaşını incidir. Ey Əbuzər! Tədbir kimi əql, günahdan çəkinmək kimi təqva və pəhrizkarlıq və gözəl əxlaq kimi də əsil-nəcabət yoxdur.”

# *Hansı beş şey, hansı beş şeyin müqabilindədir?*

***Hədislərdə zəlzələ, ölüm və digər hadisələr, zəkat verməməyin, tərəzidə aldatmağın, zinanın yayılmasının və s. bu kimi əməllərin nəticəsi kimi əlaqələndirilir. Məsələn, «Mutəfifin» surəsinin ilk ayələri haqqında İbn Abbas belə nəql edir: «Mədinəlilərin çoxu tacir olub, öz aralarında tərəzidə aldadırdılar. Onlardan çoxunun alveri haram idi. Bu ayə nazil oldu. Peyğəmbər (s) onu mədinəlilər üçün tilavət etdikdən sonra buyurdu:***

**خَمسٌ بخَمسٍ**

***«Beş şey,beş şeyin müqabilindədir.» Soruşdular: «Ey Allahın Rəsulu! Hansı beş şey, hansı beş şeyin müqabilindədir?» Həzrət buyurdu:***

**ما نقض قوم العهد الاّ سلّط الله عليه عدوّهم**

***1. Heç bir tayfa olmayıb ki, öz əhdini sındırsın, amma Allah onlara öz düşmənlərini həvalə etməsin.***

**و ما حكموا بغير ما أنزل الله الاّ فشافيهم الفقر**

***2. Qeyri-ilahi hökmlə hökm edən qrup arasında yoxsulluq çoxalar.***

**و ما ظهرت فيهم الفاحشة الاّ فشافيهم الموت**

***3. Heç bir millət olmayıb ki, aralarında zina zahir olduğu halda, aralarında ölüm çoxalmasın.***

**ولا طفّفوا الكيل الاّ منعوا النّبات و اخذوا با لسّنين**

***4. Heç bir qrup olmayıb ki, tərəzidə aldatdıqları halda əkinləri məhv olmasın və qıtlığa düşməsinlər.***

**ولا منعوا الزّكات الاّ حُبِسَ عنهم المطر**

***5. Heç bir qövm olmayıb ki, zəkat verməyi qadağan etdikləri halda, yağışları kəsilməsin.***

***Rəvayətə əsasən İmam Sadiq (ə) buyurub:***

**...اذا فشت أربعة ظهرت؛ إذا فشا الزّنا كثرت الزّلازل**

***«Hər vaxt dörd şey çoxalsa, dörd şey üzə çıxar: ... Hər vaxt zina yayılsa, zəlzələlər çoxalar...»***

## İMANLI CAVANLAR

# ƏSHABİ-KƏHFİN ƏHVALATI

**Miladi tarixi ilə yüz altıncı ildə Roma qoşunları İordaniya torpaqlarını yerlə yeksan etdilər. Nəbətilər dövləti süquta uğradı.**

**Roma imperatorunun adı Təracan idi. O bütpərəst və çox təəssübkeş bir insan idi. İmanlı insanları, xüsusən də Həzrət İsa Məsihin ardıcıllarını təqib edirdi.**

**Suriya, Fələstin və İordaniya ölkələri bu hərbi hücumdan əvvəl bir növ muxtar hökumətə malik idi. Roma paytaxt kimi bu ölkələrdən yalnız vergi almaqla kifayətlənirdi. Bunun səbəbi romalı qüvvələrin həmin ölkələrlə tanış olmamaları idi.**

**Beləliklə, romalılar ora hərbi hücum edib, öz işğal əməliyyatlarını bitirdilər. Onları birbaşa Roma dövlətinin nüfuzu və hakimiyyəti altına gətirdilər.**

**Miladi tarixi ilə yüz on ikinci ildə Roma imperatoru Təracan belə bir bəyanat verdi:**

**«Məsihin ardıcıllarından hansı birisi allahlara ibadətdən boyun qaçırsa, dövlətə xəyanət etmiş şəxs kimi mühakimə olunacaqdır. Bu zaman isə özünü ölüm və həlakətə sürükləmiş olacaqdır».**

### FİLADELFİYA

O zaman İordaniyanın paytaxtı Ammana Filadelfiya deyirdilər. Ora çox gözəl şəhər idi. Amma, şəhəri bəzəyən heykəllər yalnız zinət məqsədi daşımırdı. Onlar Allahın yerinə məbud kimi ibadət olunurdular.

Orada sağ əlində nizə olan və sol əli ilə boynundan asılmış qalxanı tutan müharibə allahı Əsniyanın heykəli vardı. Orada həmçinin indi də Ammanın qədim əsərlər muzeyində saxlanılan xoşbəxtlik allahı və şəhəri qoruyan Taykin allahının heykəli gözə dəyirdi.

Filadelfiya bu günkü Amman şəhərinin şərqində yerləşirdi. O zaman həmin şəhər böyük maddi mədəniyyətə malik idi. Amma, o diyarın möminləri qorxu içərisində yaşayırdılar. Xüsusilə, Roma qoşunları Təracanın zamanında oranı işğal etdikdə və birbaşa öz hökumətlərinə tabe etdikləri zaman.

Yüz on ikinci ildə Təracan bir fərman verməklə Məsihin bütün tərəfdarlarını dövlətə xəyanətkar hesab etdi. Xristianlar ya allahlara ibadət etməli, ya da ölümə hazır olmalı idilər.

### YEDDİ CAVAN

Bir çox insanlar qorxudan zahirdə allahlara ibadət edirdilər. Dövlət məmurları ölkə əhalisinin əqidə və inamlarını yoxlamağa başladılar. Camaat qorxuya düşdü. O şəhərdə tarixdə adları belə qeyd olunan yeddi cavan yaşayırdı:

1-Maksimilyanus
2-Təlmixa
3-Dinasiyus
4-Martinus
5-Yəmanis
6-Antonyos
7-Klityo

Bu mömin cavanlar nə edəcəkləri barədə fikirləşirdilər. Onlar necə qərara gəlsinlər?

Onların qarşısında iki yol vardı: Ölüm və küfr.

O taleyüklü anlarda onlar müəyyən bir qərara gəldilər. O qərar şəhərdən qaçmaq idi. Amma, necə?

Səhər çağı təftiş və axtarış dəstəsi möminləri təqib etdikləri zaman gözətçilər, yanlarında bir it olan və şəhərdən çıxan yeddi cavan oğlana rast gəldi. Gözətçilər soruşdular:

-Hara gedirsiniz?

Onların biri cavab verdi:

-Ova gedirik.

-Çox yaxşı. Amma, gərək qayıdıb, rəsmi bayram mərasimində iştirak edəsiniz.

### MAĞARAYA DOĞRU

O cavanlar öz itləri ilə birlikdə şəhərin şərq tərəfindən səkkiz kilometr aralı və Rəqim adlı bir kəndin yaxınlığında yerləşən mağaraya doğru yollandılar. Onlar dağlıq yerə çatıb, təpələrlə yuxarı qalxdılar və qabaqca nəzərdə tutduqları mağaraya getdilər.

Mağara dağın cənub ətəyində yerləşirdi. Mövqe cəhətindən bənzərsiz idi. Sağ və sol tərəfdə açılan yarıqlarına

görə normal havası var idi. Amma, onun qapısı cənub qütbünə sarı açılırdı.

Mağaranın sahəsi 7,5 kv. metr idi. Cavanlar gizlənmək üçün ondan istifadə etmək qərarına gəlmişdilər. Cavanlar insanlardan uzaqlaşmaq və bu məkanda gizlənib, Allahın lütf və mərhəmətini gözləmək istəyirdilər. Çünki, onların bütpərəst romalılara qələbə çalmaq ümidləri yox idi.

Onlar bütpərəstliyin qatı düşmənləri idilər. Onlar inanırdılar ki, yerləri və göyü yaradan Allahdır. Digər allahlara ibadət etmək varlıq aləminin ən böyük həqiqətini inkar etməkdir.

O zaman insanların Qiyamət gününə əqidələri yox idi. Onlar belə güman edirdilər ki, insan dünyadan köçdükdə onun ruhu başqa bir insanın və ya hansısa heyvanın bədəninə keçir.

**UZUN YUXU**

Cavanlar yorğun halda mağaraya çatdılar. Romalıların onları təqib etmələrindən və gizləndikləri yeri tapmalarından qorxurdular.

Onlar əvvəlki gecəni yatmadıqlarından çox yorulmuşdular. Ona görə də yuxuladılar. Kirpikləri yuxusuzluqdan bir-birinə dəydi. Onlar yaxşı sabah yuxusunun fikri ilə yatdılar.

Allah-təala ölüləri diriltməkdə öz qüdrətini göstərmək, insanların onun qüdrətinə inanmaları və yalnız onu elm və qüdrət mənbəyi bilmələri üçün həmin cavanlara ağır bir yuxunu hakim etdi. Onların qulaqlarına yuxu pərdəsini vurdu.

Onlar nə qədər yatdılar? Yuxuları uzun müddət davam etdi. Günəş hər gün doğub-batırdı, onlarsa eləcə yuxuda idilər.

Məmurlar hər yeri gəzib, onları axtarırdılar. Amma, zəhmətləri faydasız idi. Onların macəraları dillərə düşdü. Camaat öz-özlərinə deyirdilər:

«Ov üçün şəhərdən çıxmış yeddi cavandan heç bir xəbər yoxdur».

Beləliklə, illər bir-birinin ardınca ötüb, keçdi. O mağarada nə baş verdiyini isə heç kəs bilmirdi.

Onların itləri əllərini mağaranın ağzına qoyub, ağır və uzun yuxuya getmişdi. Mağaranın havası normal idi. Çünki, onun qapısı cənub qütbünə tərəf açılırdı. Onun iki tərəfində yarığın olmasına görə günəş doğduğu və batdığı zaman ora saçırdı.

Onlar yuxuda idilər və ətraflarında nələr baş verdiyini bilmirdilər.

On illər keçdi. Onlar hələ də yuxuda idilər.

O mağara ilə rastlaşan hər hansı bir çoban və ya yağışdan ora sığınan yolçu gördüyü dəhşətli mənzərədən qorxub, cəld qaçırdı. Niyə? Çünki, o, açıq gözləri yuxarıya dikilmiş kişilərin orada yuxuya getdiklərini görürdü. Həmçinin, orada cansız heykəl kimi yuxuya getmiş bir ov iti var idi. Onlar dərin və röyasız yuxuya qərq olmuşdular.

Bəs görəsən mağaranın bayırında nələr baş verirdi? Ölkənin şəhər və kəndlərində hansı hadisələr yaşanırdı?

**TƏRACANIN ÖLÜMÜ**

Roma imperatoru Təracan (Miladi tarixi ilə 98-117-ci illərdə Romada hakim olmuşdur) dünyadan köçdü. Ondan sonra başqa zalım hökmranlar iş başına gəldilər. 285-305 -ci illərdə hökmranlıq edən Deqyanus da dünyasını dəyişdi.

O zaman, Miladi tarixi ilə 110-cu ildə Tudmər şəhəri süqut etdi. Amma, o, yenidən bərpa olundu. Bu şəhər 278-ci ildə romalıların dağıdıcı hücumlarla Zənubiyaya yürüşlərindən sonra tamamilə tənəzzülə uğradı.

**SALEH PADŞAH**

Miladi tarixi ilə 408-ci ildə Tiyodosyos Roma imperatoru taxtına əyləşdi. O, Məsihin dinində idi. Ona görə də Roma imperiyası xristianlıq dininə üz gətirdi.

Miladi ilə 412-ci ildə Allahın iradəsi ilə həqiqət aşkar olundu. O öz lütf və mərhəməti ilə qüdrətini insanlara göstərdi.

O cavanların qaçmasından üç əsr keçirdi. Mağaranın içində nə baş vermişdi? Heç kəs bilmirdi.

O cavanlar itləri Kiltiyonun hürüməsi ilə tarixin ən uzun yuxusundan oyandılar. Yalnız bir neçə saat yatdıqlarını güman edən birisi soruşdu:

-Nə qədər yatmısınız?

Onlar hələ də yuxulu idilər. Günəşin qüruba doğru getdiyini və onun qızılı rəngli şüasının mağaranın kiçik bir hissəsinə düşdüyünü gördülər. Ona görə də bəziləri belə fikirləşdilər ki, bütün günü yatmışlar. Onlar elə bilirdilər ki, günəşin batmasını və yenidən doğmasını hiss etmədən yuxuda olmuşlar. İndi ayılmışlar və günəş yenə də qürub vaxtındadır. Ona görə də dedilər:

-Biz ya bütün bir günü ya da günün çox hissəsini yatmışıq.

Bəziləri isə belə dedilər:

-Allah daha yaxşı bilir ki, burada nə qədər yubanmısınız.

Yuxunuzun nə qədər davam etdiyini yalnız Allah bilir. Qeybi elmləri bilən yalnız odur. İnsan yuxuya getdikdə bütün dünyadan ayrılır. Məsələn, əgər bir şəxs payızın əvvəlində yatsa, oyandıqda gözü qara və yarpaqsız ağaclara düşdükdə üç aydan artıq yatdığını anlayır. Niyə? Çünki, o, payız fəslini yuxuda olmuşdur. İndi isə qış gəlmişdir.

Yuxudan ayılan bu yeddi cavan günəşin qüruba yaxınlaşdığını gördülər. Onlar bilmədilər ki, yalnız bir neçə saatmı yatıblar, yoxsa artıq. Çünki, günəşin qürub edib, yenidən doğduğunu indi qüruba doğru getdiyini, yoxsa başqa bir şəkildə olduğunu bilmirdilər.

Onlar doğrudan da imanlı insanlar idilər. Ona görə də dedilər:

«Bizim nə qədər yuxuda olduğumuzu yalnız Allah bilir».

Onlar belə güman edirdilər ki, bir gün və ya bir gündən bir qədər az yatmışlar.

**TƏHLÜKƏLİ TAPŞIRIQ**

Sonrakı gün səhər acmağa başladılar. Onların birində qızıl sikkələr vardı. O dedi:

-Bizim birimiz bu pulları götürüb, yemək dalınca

getməlidir. Amma, gərək ehtiyatlı olsun ki, onu görən olmasın. Əgər biz onların əllərinə keçsək mütləq bizi öldürəcəklər.

Başqası dedi:

-Həqiqətən onlar allahlara ibadət etməyənlər üçün daşqalaq hökmü təyin etmişlər.

Başqa birisi dedi:

-Onlar bizi allahlara səcdə etmək üçün məcbur edəcəklər.

Başqa birisi isə belə dedi:

-Bu zaman hamımız bədbəxt olacağıq.

**BAZARDA**

Onların biri şəhərə gedib, yemək almaq işini öhdəsinə götürdü. O, mağaradan çıxıb, dağdan endi. Şəhərə necə girməyi barədə fikirləşirdi. Əgər kimsə ondan bir şey soruşsa necə cavab verməli, romalı gözətçi və əsgərlərə nə deməlidir.

Üç əsrdə yağışların, sellərin və küləklərin təsiri ilə vücuda gələn dəyişiklərə və yeniliklərə diqqət yetirmirdi.

Qorxurdu və nigaran idi. Çünki, o nə ova getmişdi və nə də istirahətə. O öz yoldaşları ilə birlikdə mağaraya qaçmışdı. İndi isə yeməyə bir şey əldə etmək üçün qayıdırdı. O, qorxu içində idi.

O hər şeyin dünənki vəziyyətdə olduğunu güman edirdi. Şəhərə çatdı. Oranın bina və hasarlarına nəzər salıb, heyrətə gəldi. O, yolu azıb, başqa bir şəhərə girdiyini güman etdi.

Şəhərə daxil olduqda heç kəs ona əhəmiyyət vermədi. O, allahların heykəllərini də görmədi. Özünü tamamilə yad bir şəhərdə hiss etdi. İnsanlar ona baxır və təəccüblə deyirdilər: «Bu şəxsin əynində qədimi paltar var. Bu gün heç kim onu geyinmir. Buranın əhalisi yeni paltarlar geyinirlər».

O, insanları zülmə məruz qoyan və onların əqidə və inamlarını yoxlayan məmurları da görmürdü.

Oranın insanlarının təhlükəsiz və rahat yaşadığını müşahidə etdi. Onlar işləyib, çalışır və əkinçilik edirdilər. Onlarda heç bir qorxu və nigaranlıq müşahidə olunmurdu.

Bir nəfərdən bazarın yerini soruşdu. Ona yolu göstərdi. Cavan onların danışıq tərzinə də təəccüb etdi. İnsanların ləhcəsi çox dəyişilmişdi. Onlar yeni ləhcə ilə danışırdılar.

Çox qəribə idi.

Cavan öz-özünə dedi: «Deyəsən, yolu səhv gəlib, başqa bir şəhərə çatmışam».

**BÖYÜK HƏQİQƏT**

Özünə gəlib, öhdəsinə götürdüyü işi yerinə yetirmək barədə fikirləşdi. O, yeməyə bir şey almalı və özlərinin dağdakı sığınacaq yerlərinə qayıtmalı idi.

Ona görə də özünü çox adi və şəhər sakinlərindən biri kimi göstərməyə çalışdı.

Camaat onun qərib bir insan olduğunu və hansısa ucqar bir dağ kəndindən gəldiyini güman edirdilər.

Cavan qabaqca yeyinti məhsulları satan saleh bir kişini axtarırdı. Amma, onu tapa bilmədi. Əvəzində zahiri görünüşləri onların yaxşı insan olduqlarından xəbər verən çoxlu satıcılarla rastlaşdı.

O cavan tapşırılmış bəzi yeməliləri aldı. Onların pulunu satıcıya verəndə isə gözlənilən hadisə baş verdi.

Satıcı pulları aldıqda mat-məəttəl ona baxıb, özözünə dedi: «Bu pullar imperator Təracanın zamanına aiddir. Bu pulların vaxtından üç əsr keçir».

Satıcı cavana təəccüblə baxdı. O öz-özünə fikirləşdi: «Bəlkə də bu, xəzinə tapmışdır». Ona görə də ona dedi:

-Olmaya xəzinə tapmısan?

-Nə demək istəyirsən?

-Nə demək istəyirəm? Bu qızıl sikkələr on illər bundan əvvələ aiddir.

-Bu pullar mənimdir. Mən bunlarla yemək almağa gəlmişəm.

Satıcı həmin zamana aid olan pulu göstərib, dedi:

-Bax, biz bu pullarla alver edirik.

Cavan o vaxta qədər görmədiyi pul sikkələrinə nəzər saldı. Öz-özünə dedi: «İlahi! Bu nə deməkdir?»

Satıcı dedi:

-Əgər məni də öz xəzinənlə şərik etsən heç kimə xəbər verməyəcəyəm.

-Hansı xəzinə? Bu pullardan başqa mənim heç nəyim yoxdur.

Elə isə mən də məmurlara xəbər verəcəyəm. Satıcı cavanın paltarından yapışıb, qışqırdı. Camaat onların ətrafına toplaşdılar. O, üzünü çevirib, dedi:

-Xahiş edirəm məni burax. Əgər məni tutsalar öldürəcəklər. Təracanın əsgərləri heç kəsə rəhm etmirlər.

-Təracan?!

İnsanlar təəccüblə və gülərək dedilər:

-Təracan yüz illər bundan qabaq ölmüşdür... Ey cavan sən dəlimi olmusan?

Cavan soruşdu:

-Bəs indi şəhərin hakimi kimdir?

-Tiyodosyos... O saleh bir padşahdır. İki-üç ildir ki, Məsihin dininə inam gətirmişdir.

Cavan soruşdu:

-Demək istəyirsən ki, onlar daha Məsihin ardıcıllarını öldürmürlər?

-Nə danışırsan? Bütün insanlar Allahın dininə iman gətirmişlər. Zülm və işgəncə zamanı keçmişdir.

Alnını ovan qoca bir kişi dedi:

-Aman Allah! Uşaq vaxtı nənəm mənə bəzi cavanların sərgüzəşti haqqında danışardı. Onlar imperatordan qorxduqları üçün şəhərdən qaçmışdılar. Heç kəs onları tapa bilməmişdi.

O cavan özünü itirdi. Eşitdiyi sözlərin həyəcanından az qalırdı yerə yıxılsın. Görəsən, bütün bu illər ərzində onların yuxuda olması ağılla uyğundurmu? Görəsən, insan üç əsr müddətində yuxuya gedə bilərmi? O heç nəyi xatırlamırdı. Elə bilirdi ki, dünən yatıb, bu gün oyanmışdır. Gözlərini ovdu. Olmaya bu da yuxudur. Amma, yox, yox. Onun gördükləri həqiqət idi; çox böyük bir həqiqət.

**ƏHVALATIN SONU**

İsti və həyəcanlı xəbərlər şəhərin hakiminə çatdı. O imanlı insan idi. Cavanı gətirmələrini əmr etdi. Hakim

böyük bir həqiqətin qarşısında olduğunu anladı. Allah-təala ölüləri diriltməyinə, qiyamətin və məadın haqq olmasına və insanların bir gün Allahın dərgahında duracaqlarına aid öz qüdrətinə əlamət və nişanə göstərmək istəmişdi.

Hakim cavandan onları həmin mağaraya aparmasını istədi. Beləliklə, o cavan yola düşdü. İmanlı hakim və əsgərlər onun ardınca hərəkətə başladılar. Mağarada olan cavanlar qorxdular. Çox nigaran oldular. Çünki, qardaşları gecikmişdi. Onların biri dedi:

-Bəlkə də tutulmuşdur.

O birisi dedi:

-Bəlkə də şəhərə girərkən gecikmişdir. Siz ki, gözətçilərin nə qədər diqqətli olmalarını bilirsiz.

O an onların biri mağaradan çıxdı. Dağın yuxarısına qalxıb, zirvəyə çatdı. Oradan şəhərə gedən yola nəzər saldı. O, öz gözləri ilə onu qorxudan bir şey gördü.

Budur, uzaqdan Roma qoşunu gəlir.

Cəld qayıdıb, dostlarına xəbər verdi. Onlara dedi:

-Bir qoşunun bizə tərəf gəldiyini gördüm. Deməli, dostumuz tutulmuş və bizim yerimizi onlara göstərmişdir.

Başqa birisi dedi:

-Məncə belə deyil. Gözləyərik. Bəlkə də qoşun başqa bir yerə gedir.

Həyəcanlı anlar keçirdi. Birdən şəhərə getmiş cavan mağaraya daxil oldu. O, həqiqəti onlara söylədi.

Onlar bir gün və ya bir neçə saat yatmamışdılar. Həqiqətən yuxuları üç əsrə qədər uzanmışdı. Allah-təala onları öz qüdrət nişanələrindən biri etmişdi.

O ölüləri dirildir. Yenidən ruhu bədənə qaytarır.

O dövrdə bəziləri belə deyirdilər:

-Ruh bir bədəndən çıxdıqdan sonra bir daha geri qayıtmayıb, başqa bir bədənə daxil olur. Lakin, imanlı insanlar Allahın hər şeyə qadir olmasına inanırdılar. Bilirdilər ki, insanları yaradan, onların ruhlarını öldürən və Qiyamət günü yenidən qaytaran odur.

Cavan dostlarının yanına tək qayıtmaq üçün hakimdən icazə istədi. Çünki, onlar zülm və haqsızlıqdan qaçır, hansı hadisənin baş verdiyini isə bilmirdilər.

Cavanlar məsələdən xəbərdar olarkən Allahın qorxusundan və onun görüşünün şövqündən ağladılar. Onun dərgahına münacat edərək öz ölümlərini istədilər. Çünki, onlar keçmişə - üç əsr öncəyə bağlı insanlar idilər.

Allah-təala onların duasını eşidib, ağır bir yuxunu onlara hakim etdi. Ruhları xeyir və bərəkətlə dolu olan rahat və uzaq bir aləmə qanad çaldılar.

Hakim gözləyirdi, lakin heç bir faydası yox idi. Odur ki, şəxsən mağaraya girmək qərarına gəldi. O və ətrafındakılar mağaraya daxil olduqda çox qəribə bir mənzərəylə rastlaşdılar. Yeddi cavan öz itləri ilə birgə dünyadan köçmüşdülər. Hələ bədənləri isti idi.

Hakim və möminlər böyük Allaha səcdə etdilər.

O zaman camaat arasında ruh barəsində söhbət və mübahisələr gedirdi. Bəziləri ruhun Qiyamətdə yenidən bədənə qayıdacağını və bəziləri isə onun digər bədənə daxil olduğunu söyləyirdilər. Lakin, öz gözləri ilə Əshabi-kəhfi və ruhun onların bədəninə qayıtmasını gördükdə Allahın qüdrətini dərk etdilər.



Müşriklər bu məsələyə hələ də tərəddüdlə yanaşırdılar. Odur ki, dedilər:

-Onların olduğu yerdə bir ev tikin. Rəbbləri onların vəziyyətinə daha agahdır.

İmanlı insanlar isə dedilər:

-Orada məscid tikəcək və Allahın, qüdrətini göstərdiyi yerdən bərəkət istəyəcəyik.

Möminlər qələbə çalıb, həmin yerdə yalnız Allahın ibadət olunacağı bir məscid tikdilər.

**DOQQUZ İL ARTIQ**

Bu gün İordaniyanın paytaxtı olan Amman şəhərinə səfər edən bir insan öz yolunu şəhərin cənub-şərqinin 8-ci km.-liyinə, Rəqim və Əbu Ələnda kəndlərinin arasında yerləşən Əshabi-kəhf mağarasına sala bilər.

İnsan orada Bizans daş tabutları formasında olan bir neçə qəbir müşahidə edir. Bu daş tabutların sayı yeddidir. Bunlardan əlavə orada kiçik bir tabut da vardır. Çox güman ki, o, Əshabi-kəhfin itinin dəfn olunduğu yerdir.

Bu kəşf arxeoloq alim Rəfiq Vəfa əl-Dəcaninin səylərinin nəticəsidir. O, 1964-cü ildə öz arxeoloji qazıntılarının nəticələrini elan edərək sübut etmişdir ki, bu, Qurani-kərimdə yad edilən mağaradır. Avropalı tarixçilərin iddia etdikləri kimi Türkiyənin Urfa vilayətinin Tarsus şəhərində yerləşən mağara isə həqiqətdən uzaqdır.

Bu qrupun heyrət və təəccübünə səbəb olan məsələ isə Əshabi-kəhfin yuxularının müddətidir: 300, yoxsa 309 il?

Qurani-kərim buyurur:

«Onlar 300 il mağarada qaldılar və ona 9 il artırdılar.»

Cavab budur ki, onların yuxuları Günəş (Şəmsi) ili ilə 300, Ay (Qəməri) ili ilə isə 309 il uzanmışdır. İndi hesablayırıq:

Günəş ili 365 gündür. Buna görə də 300 Günəş ili 109500 gün (365 x 300 = 109500) olacaqdır. Lakin, Ay ili 354 gün 8 saat 48 dəqiqədir. Demək olar ki, bir Ay ili 354 və 30/11 gündür.

Əgər 309 Ay ilinin neçə gün olduğunu bilmək istəsək 309-u 354-ə vurar və 109386 gün nəticəsini alarıq.

300-ü 30/11-ə vurmaqla isə 110 rəqəmini əldə edirik. 9-u 30/11-ə vuraraq Qəməri təqviminə uyğun olaraq 4 gün hesablanacaq və bunların cəmi (109386+110+4=)109500 gün olacaqdır. Göründüyü kimi bu rəqəm 365 günlük 300 Günəş ilini və 354 və 30/11 günlük 309 Ay ilini göstərir.

# BƏZİ ƏRZAQ NÖVLƏRİNİN XEYRİ VƏ ZƏRƏRİ HAQQINDA

**Qatıq:** Qatıq elə bir sehirli qidadır ki, onun gözəlliyini deməklə qiymətləndirmək mümkünsüzdür.



Qatıq güclü müalicəvi təsirə malikdir. 300 qr. bişirilmiş soyuq südün içinə 100 qr. qatıq qarışdırıb bir neçə dəqiqədən sonra içmək faydalıdır. Bu halda süd canlanır və ana südünü əvəz edir.

Qatıq üstündən meyvə yemək ziyandır. Xəstəliklərdən qorunmaq üçün insanın iradəsi olmalıdır. Əgər insan iradəsinə güvənərsə bütün zərərli maddələri bədənindən kənarlaşdıra bilər. Alkoqolizmdən və narkomaniyadan əziyyət çəkənlər xarici və daxili ağrılarından qurtulmaq üçün qatıq içməklə şəfa taparlar. Yalnız iradəsi olan insanlar həyatda istədiklərinə nail ola bilərlər. Narkomaniya və alkoqolizmə qarşı müalicədə ən əlverişli müalicə üsulu qatıqdan istifadə etməkdir.

Qatıqla düzgün qidalandıqda orqanizmi zəhərli maddələrdən, ziyanlı canlılardan kənarlaşdırmaq olur. Qatıq susuzluğu dəf edir, ürək yanğısını aradan qaldırır və mədə-bağırsaq xəstəliklərinə qarşı çox faydalıdır. İnsanın bədənini su ilə təmin edir, quruluğu dəf edir, hərarəti aradan qaldırır. Qatıq içmək qarın köpünə, qidanın mədə-bağırsaqda həzm olunmasına, mədə, qarın ağrılarına, qıcqırmaya qarşı əlverişlidir. Mədədə küt ağrılar və qıcqırma olan zaman 400 qram təzə təbii qatığı 50 qram hər hansı bitki yağı ilə qarışdıraraq bədən hərarətinə uyğun hala salıb içdikdə mədədə olan bütün mikrobları və toksik maddələri zərərləşdirəcək. Qatıq hətta dizenteriyanı törədən amöbləri də yox edir.

Qatıq əsasən camış, inək, dəvə, keçi və qoyun südlərindən hazırlanır. Qatıq sinir və ürək-damar sistemlərinin fəaliyyətini tənzimləyir, bağırsaq və böyrəklərin fəaliyyətini gücləndirir, pozulmuş maddələr mübadiləsini bərpa edir, insanın dərsini yumşaldır, çilləməni və xalları təmizləyir, dərini incə və hamar, saçları parıltılı və ipək kimi yumşaq edir. Camış qatığında zülal, fosfor turşusu və bədən üçün lazım olan dəmir elementləri daha çoxdur. Camış qatığı, şoru, pendiri inəyin, keçinin, qoyunun süd məhsullarından qat-qat üstündür. Qatığı çörəksiz və xəmir xörəklərindən, şirniyatlardan ayrı yeyildikdə xeyirlidir. Qatıq canlıdır, +39 dərəcədən artıq isidildikdə bədən üçün lazım olan sağlam hüceyrələri ölərək ölü maddəyə çevrilərək bədən üçün elə bir xeyri olmur. Qatığı bitki yağları, göyərtilər, tərəvəz ilə birlikdə yemək daha faydalıdır.

**Pendir:** Yaxşı pendir yağlı, ətirli və bir qədər şirin olur. Qatıqdan hazırlanmış pendir daha keyfiyyətli



olur və tezliklə həzmə gedir. Pendir mədəni bərkidir, bağırsaq və böyrəklər üçün faydalıdır. O, gec həzm olunur, lakin həzm olunandan sonra tezliklə qana keçir və bütün orqanlara çatır. Qoz ləpəsi ilə yeyilən pendir dərini yumşaldır. Uşaq əmizdirən ana südünün keyfiyyətini yaxşılaşdırmaq və miqdarını artırmaq üçün pendir yeməlidir. Pendirin daha yaxşı həzm olması üçün onu nanə, tərxun və s. başqa tərəvəzlərlə yemək məqsədə uyğundur. Bərkimiş duzlu pendir iştahı artırır və bağırsaqlar üçün faydalıdır. Bununla yanaşı, köhnə pendir (düzgün saxlanmamış keyfiyyətini itirmiş pendir) susuzluq, qaşınma törədir, insanı arıqladır, daxili orqanlarda daşların əmələ gəlməsinə səbəb olur. Çox köhnə, müddəti keçmiş pendirin tərkibində zəhərli maddələr əmələ gəlir. Elə pendir yemiş insan gərək bir qədər qoz, yaxud göyərti yesin. Suyu sıxılmış pendir «dələmə» adlanır. Pendir yuxu gətirir, vərəm, isitmə, mədə iltihabına qarşı faydalıdır. O ruhi xəstələrə belə rahatlıq gətirir. Bununla yanaşı belə pendir daşların əmələ gəlməsinə səbəb ola bilər. Bəzi pendir növlərində zülalların miqdarı 30 %, yağın miqdarı isə 15-32 %-dir. Pendir bədən tərəfindən asan qəbul olunan kalsium və fosfor birləşmələri ilə zəngindir. Bu maddələr böyüyən, inkişaf edən bədən üçün çox zəruridir. Ona görə də hamilə qadınlar öz rasionuna az duzlanmış pendir də daxil etməlidir. Pendir insan bədəninə çoxlu enerji verən məhsullardan biridir.

**Tərxun:** Tərxun üzərliyin mədəni formasıdır. Kələmin içini ovub içərisinə üzərlik toxumunu qoyub



kələmin özündən qapaq hazırlayıb üstü örtülsə bir neçə gün qaldıqdan sonra cücərən toxumdan tərxun bitkisi əmələ gəlir. Tərxun insanın bədəninə istilik gətirir, iştahı açır. O da soğan, sarımsaq kimi yoluxucu xəstəliklərə qarşı təsirli vasitədir.

Tərxunu çeynəmək ağızdakı yaraların sağalmasına kömək edir. Bununla yanaşı, mədə, soyuqlama və sinir ağrılarını sakitləşdirir. Deyilənə görə onun bitkisi Merkuri, Saturn, Veneradan enerji alır.

**Üzərlik:** Üzərliyin bütün hissələrində harmin, harmalin, harmolol, peqanin və s. alkoloidlər vardır.



Yerüstü hissələrində harmin və peqanin alkoloidləri daha çox miqdarda olur, köklərində isə harmin alkoloidi çoxdur. Üzərliyin toxumlarında 3-4 % alkoloid məcmusu vardır ki, ən mühümü harmindir. Alkoloidlərdən başqa 14-25 % piyli yağ və qırmızı rəngdə boyayıcı maddə vardır.

Üzərliyin yerüstü bitkisi çiçək açan dövrdə toplayıb qurudur, ondan çay kimi dəmləyib ürək ağrılarında, ürəkkeçməsində, iflic, qıcolma, qan damar təzyiqi, sinir xəstəliklərin və mədə bağırsaqda olan girdə qurdların (askaridlərin) əleyhinə istifadə edilməsi əlverişlidir.

Üzərliyin dəmləməsindən ağız, boğaz qarqara edildikdə, yoğun bağırsaq imalə edildikdə göbələk və başqa ziyanvericilər zərərsizləşdirilir, bədəndən kənarlaşdırılır. Başda ağrı olanda üzərliyin dəmləməsini içəndə (36 dərəcə istilikdə), ayaqlar dizdən aşağı 10 15 dəqiqə saxlayıb paltar təmizləyən yumşaq fırça ilə yuyulduqda baş ağrısı gedər, başqa dərmana ehtiyac olmaz.

Yuyunduqdan sonra üzərliyin dəmləməsindən bir müddət yaxalandıqda bədənin, başın, üzün dərisini, saçları sağlamlaşdırar və tökülmüş saçları bərpa edir. üzərlik bütün canlılar üçün çox qiymətli, əvəzolunmaz bitkilərdən biridir.

**Gicitkən:** Azərbaycanda gicitkən çox geniş yayılıb. Gicitkən olduqca zəngin bitkidir. Tərkibində K vitamini (16 20 mq %), S vitamini (30 mq. %), A1, B1,



B2, R və S vitaminləri vardır. Yarpaqlarından daxili qanaxmalarda, diabetdə, babasildə, qanazlığında, avitaminozlarda və s. geniş istifadə edilir. Həddən artıq istifadə olunduqda qanda laxtalanmanı artırır.

Bitkinin qurudulmuş və xırdalanmış yarpaqlarından 2 xörək qaşığı bir stəkan qaynar suda dəmləyib, yeməkdən 1 saat əvvəl gündə 3 4 dəfə xörək qaşığı ilə qəbul edilir.

**Kərəviz:** Elə bir qiymətli, əvəzsiz bitkidir ki, ona tərif demək çox çətindir. Sağlamlıq üçün çox qiymətli qidalardan biridir. Tərkibində S vitamini, efir yağları, natrium, maqnezium, kalsium, dəmir və başqa maddələr vardır. Kərəviz şirəsi başqa bitki şirələri ilə birlikdə avitaminozlara qarşı yaxşı təsir göstərir.



Kərəviz şirəsi sidiyi qovur, qara ödü və sidik kisələrində yığılan çöküntüləri dəf edir, sinir sistemini və böyrəküstü vəzləri qüvvətləndirir. Bununla yanaşı, kərəviz şirəsi qanı zərərli maddə-lərdən təmizləyir və revmatizmə, yelə, infeksiyalara qarşı təsirli dərmandır.

Bu şirəni müntəzəm içdikdə o, immuniteti gücləndirir, orqanizmin xəstəliklərə qarşı müqavimətini artırır, kök (şişman) insanı arıqladır. Kərəviz şirəsi qırmızı qanı artıran və insan sağlamlığı üçün əvəzolunmaz bir qidadır.

Kərəvizdən sıxılmış şirə sidik kisəsində olan daşı əritmək üçün yaxşı vasitədir. Bununla yanaşı, ondan şəkər xəstəliyinin yüngül və mötədil formalarına qarşı istifadə edirlər. Kərəviz şirəsi sinir sistemi xəstəliklərinə qarşı faydalıdır.

Bu təqdirdə kərəviz şirəsini kök şirəsi ilə qarışdırıb içmək xeyirlidir. Ümumiyyətlə, kərəviz və kök şirələrinin qarışığı çox faydalı içkidir. Onun tərkibində bir çox xəstəliklərin qabağının alınması və müalicəsi üçün lazımlı maddələr vardır. Kərəviz şirəsinin xiyar, pomidor şirəsi və başqa tərəvəz şirələri ilə qarışdırılıb içilməsi əla nəticələnir. Havalar həddindən artıq isti olanda gündə üç dəfə 100-200 qram kərəviz şirəsi içmək lazımdır. Bu təqdirdə bədənin temperaturu aşağı düşür və insan özünü daha yüngül hiss etməyə başlayır.

**Kəvər:** Kəvər ürək, ciyər və mədə xəstəliklərinə qarşı istifadəsi xeyirlidir. Kəvər astma xəstəliyinə düçar



olunmuşlara kömək eləyir. Bunun üçün kəvər şirəsini içmək və yaxud kəvəri yaranın üstünə qoymaq lazımdır. Tərkibində S vitamini, nektin maddələri, yağlar, yod və rutin adında qlükozit vardır.

Kəvər qönçələrinin tozu ayrıca və yaxud başqa ədviyyatlarla qarışdırılmış halda istifadə edilir. Tərkibində çoxlu yod olduğuna görə zobun müalicəsi üçün xeyirlidir, lakin toxumlardan sıxılmış şirə daha təsirlidir. Bitkisi Veneradan enerji alır.

**Yovşan:** Yovşan əsasən səhra və yarımsəhrada yetişən ən qiymətli təbii dərman bitkisidir.



Yovşanın yarpaq və cavan zoğlarının təzəsi və ya qurusu yeməklərə qatılaraq əlavə edilsə, müalicədə, sağlamlıqda çox faydalı olar. Onun tərkibi müxtəlif maddələrlə zəngin olduğundan, bir sıra xəstəliklərin müalicəsində istifadə etməyə yararlıdır.

Yovşanın may ayında toplanmış hissələrindən qaynatmaqla, hazırlanmış məlhəmdən titrətmə, sarılıq, qaraciyər, sidik, dalaq, yuxusuzluq, ürəkkeçmə, qusma, ishal, təngnəfəslik, bədən boşluqlarına yığılmış suların və bir sıra bağırsaq xəstəliklərinin müalicəsində geniş istifadə etmək faydalıdır.

Yovşanın yarpaq, çiçək hissələrindən hazırlanmış cövhər və məlhəmdən soyuqdəymə, qanaxma, çiban və bir çox yaraların müalicəsində istifadə edilir. Yovşanın yarpaq, çiçək və yerüstü hissələrinin tərkibində qlukozitlərdən əsasən apsintin, anapsintin, xamuzen və s. maddələr var. Bu qlukozitlərin məhlulu isə azulen maddəsidir.

**Elşən Əliyev**
Avropa Elmlər Akademiyasının həqiqi üzvü

# KROSSVORD



## Soldan sağa

3. Saleh səhabələrdən biri
5. Klassik ədəbiyyatda şeir formalarından biri
8. Ehkam, şəriət
10. Kəbənin ziyarəti
11. Quranda surə
13. Moizə edən
18. Yaradan, xəlq edən
20. Cənnətdə xanım
22. Həcc geyimi
23. Namus, həya
24. Quranın qəlbi
25. "Günəş" anlamını verən surə
26. Can

## Yuxarıdan aşağı

1. Allahın vəlisi
2. Quranın açıqlaması
3. Sənəd cəhətdən düzgün olan hədis
4. Hz. Peyğəmbərin (s) tərifinə deyilmiş şeir
6. Peyğəmbərlərdən biri
7. Quran tilavətçisi
9. Günün 5-ci namazı
12. Müqəddəs şəxslərin qəbrinin ətrafına alınmış hasar
14. Cəhənnəm meyvəsi
15. Allahın adlarından biri
16. Kəbin haqqı
17. Hz. İsmailin qardaşı
19. Şeirin bir misrası
21. Allaha yetişmək elmi

# *Şeytanın düşməni kimlərdir*

İnsanın çıxdığı səfərdə məqsədə çata bilməməsinin əsas səbəblərindən biri yolda maneləri, düşmənləri tanımamasıdır. İbni Abbas nəql edir ki, Həzrət Peyğəmbər (s) şeytandan soruşdu:
-Ümmətimdən kimləri özünə düşmən sayırsan?
Şeytan cavab verib dedi:



Ya Rəsulallah birincisi sən özün...



Elminə əməl edən alim



Quran oxuyub ona əməl edənlər...



Yetim və miskinləri sevənlər...



Mehriban insanlar...



Haqqı deyənlər...



Cavanlığını ibadətə həsr edən insanlar...




Haramdan qaçanlar...



Xeyirxahlıq edən və qardaşlarına dua edən insanlar...



Daima dəstamazlı olan insanlar...



Səxavətli insan...



Gözəl əxlaqlı insan...



İlahi vədələri təsdiq edənlər...



İffətli,ismətli və namuslu xanımlar...



O kəs ki, hər an ölümə hazırdı və heç nədən qoruxmur...

***ALLAH bizləri öz dostlarından qərar verib şeytana düşmən eləsin.....Amin!!!***













# AZAN VAXTLARI

| Tarix | Şübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 6:49 | 8:14 | 13:14 | 18:15 | 18:34 | 00:41 |
| 02 | 6:48 | 8:13 | 13:14 | 18:17 | 18:35 | 00:41 |
| 03 | 6:47 | 8:12 | 13:15 | 18:18 | 18:36 | 00:41 |
| 04 | 6:46 | 8:11 | 13:15 | 18:19 | 18:37 | 00:41 |
| 05 | 6:45 | 8:10 | 13:15 | 18:21 | 18:39 | 00:41 |
| 06 | 6:44 | 8:08 | 13:15 | 18:22 | 18:40 | 00:42 |
| 07 | 6:43 | 8:07 | 13:15 | 18:23 | 18:41 | 00:42 |
| 08 | 6:42 | 8:06 | 13:15 | 18:24 | 18:42 | 00:42 |
| 09 | 6:41 | 8:05 | 13:15 | 18:26 | 18:43 | 00:42 |
| 10 | 6:40 | 8:04 | 13:15 | 18:27 | 18:45 | 00:42 |
| 11 | 6:39 | 8:02 | 13:15 | 18:28 | 18:46 | 00:42 |
| 12 | 6:38 | 8:01 | 13:15 | 18:29 | 18:47 | 00:42 |
| 13 | 6:37 | 8:00 | 13:15 | 18:31 | 18:48 | 00:42 |
| 14 | 6:36 | 7:59 | 13:15 | 18:32 | 18:50 | 00:42 |
| 15 | 6:34 | 7:57 | 13:15 | 18:33 | 18:51 | 00:42 |
| 16 | 6:33 | 7:56 | 13:15 | 18:34 | 18:52 | 00:42 |
| 17 | 6:32 | 7:55 | 13:15 | 18:36 | 18:53 | 00:42 |
| 18 | 6:31 | 7:53 | 13:15 | 18:37 | 18:54 | 00:42 |
| 19 | 6:29 | 7:52 | 13:15 | 18:38 | 18:56 | 00:42 |
| 20 | 6:28 | 7:50 | 13:15 | 18:39 | 18:57 | 00:42 |
| 21 | 6:27 | 7:49 | 13:14 | 18:41 | 18:58 | 00:42 |
| 22 | 6:25 | 7:47 | 13:14 | 18:42 | 18:59 | 00:42 |
| 23 | 6:24 | 7:46 | 13:14 | 18:43 | 19:00 | 00:41 |
| 24 | 6:22 | 7:44 | 13:14 | 18:44 | 19:02 | 00:41 |
| 25 | 6:21 | 7:43 | 13:14 | 18:46 | 19:03 | 00:41 |
| 26 | 6:20 | 7:41 | 13:14 | 18:47 | 19:04 | 00:41 |
| 27 | 6:18 | 7:40 | 13:14 | 18:48 | 19:05 | 00:41 |
| 28 | 6:17 | 7:38 | 13:13 | 18:49 | 19:06 | 00:41 |

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*